## Dənizdə batma təhlükəsi ilə üzləşən şəxs xilas edilib



**Mərdəkan sularda xilasetmə məntəqəsi ərazisində çimərkən batma təhlükəsi ilə üzləşən şəxs nəfər xilas edilib.**

Fövqəladə Hallar Nazirliyindən "Şərq"ə bildirilib ki, məlumatla əlaqədar dərhal hadisə yerinə nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin "Bakı-bulvarı" dalğıc-axtarış qrupunun qüvvələri cəlb edilib.

Həyata keçirilən operativ xilasetmə əməliyyatı sayəsində dənizdə batma təhlükəsində olan vətəndaş dalğıc-axtarış qrupunun dalğıcları tərəfindən xilas edilib.

## Ukraynanı bərpası üçün 1 trilyon dollar lazım olacaq

**"Ukraynanın bərpası üçün 1 trilyon dollardan çox vəsait lazım olacaq".**

"Report" UNIAN-a istinadən xəbər verir ki, bunu Avropa İnvestisiya Bankının (EIB) rəhbəri Verner Hoyer brifinqdə bildirib.

Onun sözlərinə görə, Avropa Ukraynanın yenidən qurulmasında ən böyük rolu oynamalı olacaq.

"EIB rəhbərliyi artıq Ukraynanın yenidən qurulması üçün 1-1,5 milyard dollar arasında vəsaitin ayrılması üzərində işləyir", - Hoyer vurğulayıb.




## Nazirlik aydınlıq gətirdi

### "Dərslərin sentyabrın 1-də başlaması müzakirə məsələsi deyil"

**Təhsil Nazirliyi tədris ilinin sentyabrın 1-də başlaması ilə bağlı səsləndirilən təkliflərə münasibət bildirib.**

Nazirlikdən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, hazırda bu, müzakirə məsələsi deyil.

"Ümumi təhsil müəssisələrində tədris ilinin müddəti"nin təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin 24 fevral 2020-ci il qərarına əsasən 2.3. Ümumi təhsilin ibtidai, ümumi orta və tam orta təhsil səviyyələri üzrə dərs məşğələləri hər il sentyabrın 15-də başlayır və növbəti il iyunun 14-də başa çatır. Hazırda bu prosesin dəyişdirilməsi müzakirə məsələsi deyil" - deyə cavabda qeyd olunub.


❐ № 108 (5630), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 22 iyun 2022-ci il (çərşənbə)




## Türkiyə hərbçilərinin Liviyada qalma müddəti uzadılıb

**Türkiyə hərbçilərinin Liviyaya göndərilməsi və qalmasının müddəti uzadılıb.**

Müvafiq qanun layihəsi Türkiyə Böyük Millət Məclisində səs verməyə çıxarılaraq qəbul olunub.

Qərara əsasən, Türkiyə hərbçilərinin Liviya ərazisində qalmağına verilən icazənin müddəti daha 18 ay müddətinə uzadılıb.

## Ukrayna ordusu İlan adasına zərbə endirib

### Rusiya qarnizonu aviazərbələr nəticəsində ciddi itkilər verib



**Ukrayna ordusu Qara dənizdəki İlan adasına aviazərbələr endirib.**

APA-nın CNN-ə istinadən xəbərinə görə, məlumatı Ukrayna Silahlı Qüvvələrinin Cənub Əməliyyat Komandanlığı yayıb. Bildirilib ki, adadakı hədəflərə müxtəlif silahlardan dağıdıcı zərbələr endirilib.

Komandanlıq hərbi əməliyyatın davam etdirildiyini, bu səbəbdən əməliyyat bitənədək "informasiya sükutu" tələb olunduğunu vurğulayıb.

Məlumatda qeyd olunub ki, adadakı Rusiya qarnizonu aviazərbələr nəticəsində ciddi itkilər verib.

# Tarixi səfər

### Özbəkistanla Azərbaycan arasında 20-dək sənəd imzalanıb



**Şavkat Mirziyoyev:** "Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır"

**İlham Əliyev:** "Biz, iki Prezident qərara aldıq ki, tapşırıqlarımızın yerinə yetirilməsini özümüz nəzarətdə saxlayacağıq"

**İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olub.**

**Dövlət başçıları görüşdə çıxış ediblər.**

**Əvvəlcə Prezident Şavkat Mirziyoyev nitq söyləyib:**

- Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır. Ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir ki, bu barədə bu gün biz məhdud tərkibdə keçirilən görüşdə çox ətraflı danışdıq. Biz Azərbaycanın sanballı uğurlarına Özbəkistanda həmişə ürəkdən sevinirik. Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır.

(səh.2)

## Hər mənzildə od söndürən balon olmalıdır

### Yay aylarında baş verən yanğınların əsas səbəblərindən biri elektrik naqillərinin qızmasıdır



**Havaların isti keçdiyi günlərdə yanğın barədə məlumatlar narahatlıq doğurur.** Bu günlərdə paytaxtda bir neçə belə hadisə baş verib. Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mikrorayon, R.Behbudov küçəsində yerləşən "Dendroloji park"ın ərazisində baş vermiş yanğın nəticəsində 500kv.m. sahədə quru ot yanıb. Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələrinin səyi ilə yanğın söndürülərək alovun ətraf ərazilərə yayılmasına imkan verilməyib.

(səh.7)



## Rusiyada hərbi təyyarə qəzaya uğrayıb

### İlkin ehtimala görə qəzaya texniki nasazlıq səbəb olub

**Rusiyanın Rostov vilayətində Cənub Hərbi Dairəsinə məxsus "Su-25" qırıcı təyyarəsi qəzaya uğrayıb.**

APA TASS-a istinadla bildirir ki, qəza təlim uçuşu zamanı baş verib. Pilot həlak olub.

Uçuş zamanı təyyarədə heç bir silah olmayıb və təyyarə boş əraziyə düşüb.

İlkin ehtimala görə qəzaya texniki nasazlıq səbəb olub. Hadisə yerində istintaq komissiyası işləyir.

## Ermənistanda partiya sədri deputat mandatından imtina edib

### O, bu addımı hökumətin fəaliyyətinə etiraz olaraq atdığını bildirib



**Ermənistanın müxalif Vətən Partiyasının sədri, Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru Artur Vanesyan deputat mandatından imtina edib.**

"Report" xəbər verir ki, məlumatı "Aysor" yayıb.

O, bu addımı hökumətin fəaliyyətinə etiraz olaraq atdığını bildirib.

*Qeyd edək ki, A.Vanesyan 2016-2018-ci illərdə Milli Təhlükəsizlik Xidmətinin Yerevan idarəsinin rəisi müavini işləyib. O, 2018-ci il mayın 10-dan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin direktoru təyin edilib. Baş nazir Nikol Paşinyanın komandasının əsas üzvlərindən biri olub. Lakin 2019-cu il sentyabrın 16-da istefa verib.*

## 21 yeni yoluxma faktı qeydə alınıb

### Analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 21 yeni yoluxma faktı qeydə alınıb, 16 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

Azərbaycanda indiyədək ümumilikdə 793 036 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 181 nəfər müalicə olunaraq sağalıb, 9 716 nəfər vəfat edib, aktiv xəstə sayı 139 nəfərdir.

*Ölkədə son sutka ərzində 2 646, hazırkı dövrədək isə 6 942 791 test aparılıb.*



## Millət vəkillərinin maaş artımı qıcıq yaradır

Tural Abbaslı: "Veteranlara verilən 80 manat 150 manata yüksəldilsin. Müəllimin, həkimin maaşını artırsınlar"

(səh.3)

## 6 ay müşahidə aparılıb

DTX Gömrük Komitəsində əməliyyata başlayıbsa, vəziyyət ciddidir



(səh.5)





# Tarixi səfər

## Özbəkistanla Azərbaycan arasında 20-dək sənəd imzalanıb

**Şavkat Mirziyoyev:** “Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır”

**İlham Əliyev:** “Biz, iki Prezident qərara aldıq ki, tapşırıqlarımızın yerinə yetirilməsini özümüz nəzarətdə saxlayacağıq”

**İyunun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ilə geniş tərkibdə görüşü olub.**

**Dövlət başçıları görüşdə çıxış ediblər.**

**Əvvəlcə Prezident Şavkat Mirziyoyev nitq söyləyib:**

- Azərbaycan bizim üçün yaxın dost və zamanın sınağından çıxmış etibarlı strateji tərəfdaşdır. Ölkələrimizi ortaq din, mənəvi dəyərlər, oxşar ənənələr, dil və mədəniyyət birləşdirir ki, bu barədə bu gün biz məhdud tərkibdə keçirilən görüşdə çox ətraflı danışdıq. Biz Azərbaycanın sanballı uğurlarına Özbəkistanda həmişə ürəkdən sevinirik. Bu gün Sizin əldə etdiyiniz nailiyyətlər bütün dünyada tanınır. Mənim qardaşım, hörmətli İlham Heydər oğlu dahi atası Heydər Əliyevin işini davam etdirdi və Azərbaycan xalqının əzəli torpaqlarını geri qaytarmaqla tarixi ədaləti bərpa etdi. Bu gün Sizin rəhbərliyinizlə böyük quruculuq işləri aparılır. Bu torpaqlar bizim gözlərimiz qarşısında yenidən çiçəklənən diyara çevrilir. Biz bu nəcib işə öz töhfəmizi verməyə şad olarıq, bu barədə də məhdud tərkibdə keçirilən görüşdə danışdıq.

Hörmətli görüş iştirakçıları, İlham Heydər oğlu ilə keçirilən məhdud tərkibdə, məhdud formatlı bugünkü görüşdə fikrimcə, biz ikitərəfli münasibətlərimizin bütün məsələləri barədə çox əyani, açıq, səmimi söhbət etdik, hətta hansı istiqamətlər üzrə real nəticə olması üçün nə etməli və necə etməli olmağımız barədə danışdıq. Əlbəttə, son illər biz etimada əsaslanan dialoqumuzu və praktiki əlaqələrimizi əhəmiyyətli dərəcədə fəallaşdırmışıq. Bu gün mühüm siyasi sənəd - Strateji tərəfdaşlığın genişləndirilməsi və hərtərəfli əməkdaşlığın artırılması haqqında Bəyannamə qəbul olunacaq. Birləşmiş Millətlər Təşkilatı, Türk Dövlətləri Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində sıx əlaqələrimiz mövcuddur. Biz ticarətdə, sənayedə, kooperasiyada dinamik artım müşahidə edirik. Biz yalnız bu gün bu barədə tənqidi, ciddi danışdıq, qeyd etdik ki, əslində, əmtəə dövriyyəsi 6 dəfə artıb, lakin bu barədə tənqidi fikirləşməyə dəyər və biz bu məsələləri çox ciddi təhlil etdik. Birgə müəssisələrin sayı 4 dəfə artıb. Uğurlu əlamətdar layihələr arasında Hacıqabulda avtomobillərin birgə istehsalının təşkilini və ipəkçilik sahəsində kooperasiyanı qeyd etmək olar. Lakin göstəricilər hələ çox cüzidir və iqtisadiyyatlarımızın bir-birini qarşılıqlı tamamlayan amillərinin mövcud böyük potensialından istifadə etməyin zəruri olduğunu göstərir.

Bizim görüşümüz ərəfəsində səmərəli biznesforum keçirilib, 1,5 milyard dollardan yuxarı həcmdə investisiya sazişləri və ticarət müqavilələri paketi imzalanıb. Onların arasında neft-qaz, neft-kimya sahələrində, energetika, əczaçılıq, tikinti materialları istehsalı, şərabçılıq, yeyinti, toxuculuq məhsullarının və zərgərlik məmulatlarının istehsalı üzrə perspektiv layihələr mövcuddur. Ələt Azad İqtisadi Zonasının bazasında sonradan Avropa İttifaqı bazarlarına çıxmaqla layihələrin icrası üçün imkan var.

Həmçinin razılığa gəldik ki, layihələrin icrası üçün birgə investisiya fondu yaradılacaq, artıq növbəti ayda onların sürətli həlli üzrə proqram tədbirlərinin qəbul edilməsi üçün hökumətlərarası komissiyanın iclası təşkil olunacaq.

Hörmətli nümayəndə heyətinin üzvləri, nəqliyyat və kommunikasiya sahəsində əməkdaşlığımız strateji xarakter daşıyır. Biz Azərbaycanın müasir nəqliyyat şəbəkəsindən, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolundan istifadə edərək, yük daşımalarını bundan sonra da artırmaq niyyətindəyik. Bu, xüsusən, ərzaq və sənaye mallarının tranziti məsələlərinə aiddir.

Eyni zamanda, indiki reallıqlar alternativ dəhlizlərin formalaşmasını tələb edir. Bu baxımdan, Özbəkistan-Qırğızıstan-Çin və Termez-Məzari-Şərif-Kabil-Pişəvər dəmir yollarının tikintisi gələcəkdə ölkələrimizin Asiya-Sakit okean regionu və Cənubi Asiya dövlətlərinin 3 milyarddan çox istehlakçısı olan bazarlarına ən qısa yolla çıxışı təmin etməyə imkan verəcək. Biz bu istiqamətdə birinci dərəcəli məsələlərin həlli üçün nəqliyyat nazirlərinin rəhbərliyi ilə işçi qrupu yaratmaq barədə razılaşdıq. Biz həm də xarici işlər nazirlərinin rəhbərliyi ilə işçi qrupu yaratmaq barədə razılığa gəldik. Biz bu məsələləri uzatmırıq, ilk görüş gələn ay Daşkənddə olacaq. Əlbəttə, nəqliyyat nazirləri, investisiya və iqtisadiyyat nazirləri xarici işlər nazirlərinin himayədarlığı ilə işləyəcəklər. Fikrimcə, ona görə ki, bizim çox ciddi niyyətlərimiz var.

Bundan əlavə, bu gün hərbi və hərbi-texniki əməkdaşlıq sahəsində mühüm sənəd qəbul ediləcək. Müdafiə nazirləri artıq bu gün bizim bu sazişlərin reallaşdırılması üzrə birinci dərəcəli addımları müəyyən etməlidirlər.

Hörmətli İlham Heydər oğlu, hörmətli nümayəndə heyətinin üzvləri. Bir daha vurğulamaq istərdim ki, ölkələrimiz çox böyük potensiala malikdir. Bu gün biz məhdud tərkibdə görüşdə bütün istiqamətlər üzrə potensiallarımızı bir daha çox ətraflı müzakirə etdik və hökumətlərarası komissiyaların həmsədrlərinə və ya sədrlərinə tapşırıqlar verdik ki, ən yaxın vaxtda, bu ilin noyabrında Səmərqənddə keçiriləcək görüşə qədər real nəticə olsun. Ən başlıcası, biz qarşılıqlı münasibətlərimizin müsbət təcrübəsini qazanaq. Nümayəndə heyətinin bütün üzvlərinə demək istəyirəm ki, indiyə qədər bizim bu cür etimada əsaslanan açıq söhbətimiz olmayıb. Bu gün biz çox səmimi formada açıq etiraf etdik ki, çox böyük imkanlarımız var, lakin təəssüf ki, nəticələr azdır. Bu nəticələr onu göstərir ki, İlham Heydər oğlunun tarixi səfəri özlüyündə bizim münasibətlərə yeni təkan verməlidir. Mən bizim bugünkü danışıqlardan tam razıyam, çünki istəyirdim ki, bu görüş tarixi olsun - bu, həqiqətən tarixidir, bu mənada ki, bizim qarşılıqlı münasibətlərimizin böyük potensialında böyük iz qoyacaq və bu, real nəticə olacaq.

**Daha sonra Prezident İlham Əliyev çıxış edib:**

- İlk növbədə, qonaqpərvərliyə və dəvətə görə bir daha təşəkkür etmək istərdim. Mən qardaş Özbəkistana səfər etməyimə və gələcək qarşılıqlı fəaliyyətimizin mühüm məsələlərini Sizinlə müzakirə etmək imkanına malik olduğuma görə çox şadam. Bu səfər həqiqətən tarixi səfərdir. Mən Şavkat Miromonoviçin çıxışında qeyd etdiyi istiqamətlər üzrə onun fikirləri ilə tamamilə şərikəm. Biz münasibətlərimizin gələcək hərtərəfli inkişafının əsasını qoyuruq. Dünən və bu gün bizim həyat fəaliyyətimizin demək olar ki, bütün mühüm sahələrini əhatə edən 20-yə yaxın sənəd imzalanıb və imzalanacaq. Bir də, əlbəttə, siyasi sənəd - bizim inkişafımızı çox illər əvvəlcədən istiqamətini müəyyən edən birgə Bəyannamə.

Qarşılıqlı iqtisadi fəaliyyət məsələlərinə gəldikdə, mən Şavkat Miromonoviçin dedikləri ilə həmrəyəm. Biz əlaqələrimizi intensivləşdirməliyik. Nazirlərə müvafiq tapşırıqlar verilib. Əminəm ki, hər bir istiqamət - iqtisadi qarşılıqlı fəaliyyət, əmtəə dövriyyəsinin artırılması, nəqliyyat-logistika sferası, energetika üzrə yaxşı nəticələr olacaq. Biz, iki Prezident qərara aldıq ki, tapşırıqlarımızın yerinə yetirilməsini özümüz nəzarətdə saxlayacağıq və müvafiq nazirliklər müntəzəm surətdə irəliləyiş barədə bizə məruzə edəcəklər. Bu yolla biz ticari-iqtisadi sahədə və təkcə bu sahədə deyil, ciddi tərəqqiyə nail ola bilərik. Ona görə ki, bu gün biz qarşılıqlı beynəlxalq fəaliyyətin mühüm məsələlərini müzakirə etdik və əlbəttə, bütün beynəlxalq strukturlarda daimi qarşılıqlı dəstəyi böyük məmnunluqla qeyd edirik. Şavkat Miromonoviç bizim əməkdaşlıq etdiyimiz təşkilatlar barədə danışdı. Biz həqiqətən dostlar, qardaşlar kimi əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik.

Mən, həmçinin Azərbaycanın ərazi bütövlüyünün bərpası işində Azərbaycanı dəstəklədiyinizə görə ayrıca təşəkkürümü bildirmək istərdim. Azərbaycan xalqı ən ağır dövrdə özbək xalqının qardaşlıq dəstəyini hiss edirdi və mən Azərbaycan Prezidenti kimi qardaşım Şavkat Miromonoviçin qardaşlıq dəstəyini həmişə hiss edirdim. Bu, bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir.

Əlbəttə, dünyadakı vəziyyət nəzərə alınmaqla hər bir ölkə müdafiə qabiliyyətini möhkəmlətməyə çalışmalıdır. Bu gün Şavkat Miromonoviç ilə dialoqumuzun bir hissəsi bu məsələyə həsr edilib. Müvafiq tapşırıqlar verilib. Düşünürəm ki, hərbi əməkdaşlıq, hərbi-texniki əməkdaşlıq, habelə hərbi təhsil sahəsində əməkdaşlıq istiqamətində əlavə addımlar atılacaq. Mənim fikrimcə, bu sahədə də qarşılıqlı fəaliyyətimiz möhkəmlənəcək, çünki həm Özbəkistanda, həm də Azərbaycanda elə mövzular var ki, onları müzakirə etmək lazımdır, kənar təhdidlər var, ölkələrimiz və xalqlarımız onlarla üzləşməli olurlar. Buna görə də düşünürəm ki, bu sahədə təcrübə mübadiləsi və praktiki qarşılıqlı fəaliyyət həmişəkindən daha vacib olacaq.

Azərbaycanda ipəkçiliyin inkişafı ilə bağlı məsələlərin operativ həllinə görə Şavkat Miromonoviçə təşəkkür edirəm. Mən dəstək üçün müraciət edəndə dərhal kömək göstərildi və bu, həmin sahəni inkişaf yoluna çıxarmaq üçün addımlar atmağımıza imkan verdi. Biz bu gün həm də kənd təsərrüfatı fəaliyyətinin başqa istiqamətləri ilə bağlı məsələləri müzakirə etdik. Əminəm ki, bu istiqamətlər üzrə də mühüm uğurlar əldə ediləcək. Əlbəttə, mən səfərdən əvvəl də, səfər çərçivəsində də Özbəkistanın bugünkü sənaye potensialı haqqında çox eşitmişəm. Bu gün sənaye potensialı, onun bir hissəsi ilə texnoparkda tanış olmaq imkanı olacaq. Əminəm ki, bu, müştərək layihələrin praktiki reallaşdırılması baxımından da bizim kooperasiyamız üçün çox vacibdir. Qarşılıqlı ünsiyyət çərçivəsində görürük ki, artıq yaxşı elementlər var. Konkret olaraq Hacıqabulda avtomobil zavodu. Mənə bu gün deyildi ki, avtomobil istehsalı nomenklaturunu genişləndirmək və istehsal edilən avtomobillərin sayını artırmaq planlaşdırılır. Özbəkistan haqlı olaraq bu müəssisə ilə fəxr edə bilər. Bilirəm ki, Özbəkistanda belə müəssisələr az deyil.

Qarabağın bərpası işində qardaş köməyinə görə, Prezident Şavkat Miromonoviçin işğaldan azad edilmiş Füzuli şəhərində hədiyyə kimi məktəb tikmək qərarına görə də ayrıca təşəkkürümü bildirmək istərdim. İşlər artıq başlanıb və növbəti tədris ilinə qədər məktəbin istifadəyə verilməsi planlaşdırılır. Biz bunu çox yüksək qiymətləndiririk. Bu, bizə verilmiş ilk belə böyük hədiyyədir. Biz Qarabağı hələlik öz gücümüzlə bərpa edirik. Əlbəttə, qardaşlıq münasibəti bizim üçün çox qiymətlidir. Ona görə ki, İkinci Qarabağ müharibəsi başa çatandan dərhal sonra biz Şavkat Miromonoviçlə görüşəndə o, belə bir təşəbbüs irəli sürdü və bu təklif minnətdarlıqla qəbul edildi. Bu məktəb praktiki baxımdan həm də bizim qardaşlığımızın rəmzi olacaq, yüzilliklər boyu Azərbaycan xalqının xatirində qalacaq.

Mən Şavkat Miromonoviçin apardığı islahatları - Özbəkistanın investisiya baxımından cəlbediciliyinin, sənaye potensialının artırılması, sosial məsələlərin həlli üzrə apardığı islahatları çox yüksək qiymətləndirirəm. Biz müxtəlif beynəlxalq tədbirlər çərçivəsində, o cümlədən Bakıda da dəfələrlə görüşmüşük, fikir mübadiləsi aparmışıq. Əlbəttə, Özbəkistan kimi müsbət demoqrafik dinamikaya malik olan ölkə bu təhdidlərin öhdəsindən gəlir. Sənaye istehsalı, iş yerləri, xalqın sosial rifahı - bütün bu mövzular daim Prezidentin diqqət mərkəzindədir və Azərbaycanda biz də, əminəm ki, Özbəkistan sakinləri də bu istiqamətlərdə böyük nailiyyətlər, böyük tərəqqi görürlər. Biz buna şadıq. Biz dostlar kimi, qardaşlar kimi Sizin uğurlarınıza sevinirik. Əminik ki, qardaş özbək xalqının ardıcıl inkişafı davam edəcək. Biz də, əlbəttə, öz tərəfimizdən qarşılıqlı fəaliyyətimizi genişləndirmək üçün səy göstərəcəyik. Biz bu gün çox mövzular barədə ətraflı söhbət etdik. Ən başlıcası odur ki, bütün tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik.

Qonaqpərvərliyə görə bir daha sağ olun. Ümidvaram ki, bu gün də, sabah da Sizinlə bu fəal, səmərəli dialoqu davam etdirəcəyik.

*Qeyd edək ki, Daşkənddə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə Azərbaycan-Özbəkistan sənədlərinin imzalanması mərasimi olub.*

”Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə”ni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev imzaladılar.

”Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə Özbəkistan Respublikasının Məşğulluq və Əmək Münasibətləri Nazirliyi arasında Anlaşma Memorandumu”nu Azərbaycanın əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev və Özbəkistanın məşğulluq və əmək münasibətləri naziri Nozim Xusanov imzaladılar.

”Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi və Özbəkistan Respublikasının İnnovativ İnkişaf Nazirliyi arasında Anlaşma Memorandumu”nu Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın innovativ inkişaf naziri İbroxim Abduraxmonov imzaladılar.

”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın kənd təsərrüfatı naziri İnam Kərimov və Özbəkistanın Karantin və Bitkilərin Mühafizəsi Agentliyinin baş direktoru İbrahim İrqaşev imzaladılar.

”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye mülkiyyətinin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın ədliyyə naziri Ruslanbek Davletov imzaladılar.

”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında beynəlxalq avtomobil əlaqələri haqqında Saziş”i Azərbaycanın rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Özbəkistanın nəqliyyat naziri İlxam Maxkamov imzaladılar.

”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi sahədə əməkdaşlıq haqqında Saziş”i və ”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında hərbi-texniki əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın müdafiə naziri Zakir Həsənov və Özbəkistanın müdafiə naziri Baxodir Kurbanov imzaladılar.

”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında Saziş”i və ”Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2022-2024-cü illər üzrə əməkdaşlıq Proqramı”nı Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Özbəkistanın xarici işlər nazirinin vəzifələrini icra edən Vladimir Norov imzaladılar.

”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında sənaye sahəsində əməkdaşlıq haqqında Saziş”i və ”Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında regionlararası əməkdaşlıq haqqında Saziş”i Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və Özbəkistanın Baş nazirinin müavini, investisiyalar və xarici ticarət naziri Sardor Umurzakov imzaladılar.

# “Bir aya Rusiya-Ukrayna savaşı bitəcək..."

## Analitik: “Rusiya artıq mesaj verir ki, Donetsk, Luqansk sərhədləri çərçivəsində əməliyyatı yekunlaşdırmaq istəyir”

**”Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Sankt-Peterburqda Donetsk və Luqansk separatçı rejimlərini tanımayacağını elan etdi, bunun əsaslandırmasını da verdi. Mən hesab edirəm ki, Prezident Vladimir Putin onun bu mövqeyini eşitməyə hazır idi. Bəlkə də, Tokayev bu sözləri səsləndirməsi üçün Sankt-Peterburqdakı tədbirə dəvət edilmişdi”.**



*Teleqraf.com bildirir ki, bunu analitik Mehman Əliyev deyib.*

*Analitik xatırladıb ki, Rusiyada bir Putinin apardığı siyasi xətt var, bir də başqa xətlər:*

”Məsələn, fevralın 22-də Putin Təhlükəsizlik Şurasının iclasını keçirdi. Həmin iclasda çoxları bilmirdi ki, Putin hansı qərarı verəcək. Burada da hərə bir şey danışır. Biri deyir Ukrayna əraziləri Rusiyaya birləşəcək, digəri başqa söz deyir. Amma Putinin özünün siyasi xətti var və Tokayevi də dəvət edib ki, fikrini desin. Həm də göstərir ki, belə mövqe də var. Mənim ehtimalıma görə, bu, özfəaliyyət deyil ki, gəlib Putinin yanında sərt şəkildə mövqe səsləndirilsin. Əksinə, Kreml istəyirdi ki, belə mövqe də səsləndirilsin. Bu, Putinin marağında idi”.

**Mehman Əliyev bildirib ki, Donetsk separatçılarının lideri Denis Puşilin Tokayevin verdiyi bəyanatı qiymətləndirməkdən qaçıb:**

”Deyib ki, bu müstəqil dövlətin fikridir, özləri bilər və s. Daha dəqiq desək, Puşilin Tokayevin dediklərini şərh etməkdən çəkinib. Dmitri Peskov isə bildirib ki, başqa torpaqlar bizə lazım deyil, biz Donbasın əhalisinin təhlükəsizliyini təmin etmək istəyirik. Rusiya artıq mesaj verir ki, Donetsk, Luqansk sərhədləri çərçivəsində əməliyyatı yekunlaşdırmaq istəyir. Belə baxanda müharibə bir aydan sonra dayandırılacaq. Məncə, öncədən plan belə idi. Ukrayna da Donbası heç vaxt Rusiyaya təhvil verməzdi. Əgər təhvil versəydi, Kiyevdə hakimiyyət dəyişərdi. Sona qədər savaş getməli idi. Ukrayna savaşdığını göstərir”.

# Füzulidə 450 ev tikiləcək

**İşğaldan azad edilmiş ərazilərdə ikinci ''Ağıllı kənd'' layihəsi Füzuli rayonunun Dövlətyarlı kəndində həyata keçiriləcək. Prosesə yaxın vaxtlarda başlanacaq.**



Xəzər TV xəbər verir ki, mövzu ilə bağlı danışan millət vəkili Vüqar Bayramov deyib ki, layihə çərçivəsində adıçəkilən kənddə yaşıl və alternativ enerji növlərindən istifadə ediləcək, ”ağıllı idarəetmə” sistemi tətbiq olunacaq.

Kənddə insanların yaşayışı üçün lazımi infrastruktur qurulacaq. Kəndin ətrafında ”Ağıllı kənd” təsərrüfatı sahəsi yaradılacaq. Beləliklə, sakinlərin rahat yaşaması və kənd təsərrüfatı ilə məşğul olması üçün zəruri işlər həyata keçiriləcək. Burada xarici investisiya əsasında günəş paneli tarlası salınacaq. Layihənin gücünün 50 meqavat olması gözlənilir. Tarlada 20 daimi iş yeri yaradılacaq.

İnsanların məşğulluğunun təmin edilməsi üçün layihələr həyata keçiriləcək.

Millət vəkili əlavə edib ki, Dövlətyarlı kəndində ağıllı turizm həllərinin tətbiqi vasitəsilə kənd turizmi və otel infrastrukturunun yaradılması nəzərdə tutulub. Kənddə qurulan müəssisələrdə 40 daimi, 300-dək mövsümi iş yeri yaradılacaq.



# "Heydər Əliyev Azərbaycanın memarı idi"

## Şavkat Mirziyoyev: "O, ölkəsi üçün ən ağır illərdə taleyinə görə çox böyük məsuliyyəti cəsarətlə öz üzərinə götürüb, müasir dövlətçiliyin əsaslarını yaradıb"

**"Heydər Əliyev bütün həyatını Azərbaycana xidmətə həsr edib". Bunu Daşkənddə Heydər Əliyev Meydanının açılış mərasimində çıxış edən Prezident İlham Əliyev deyib. Dövlət başçısı bildirib ki, küçə, meydan, barelyef, gözəl park - bunlar Azərbaycan xalqının böyük Liderinin xatirəsinə, bütün Azərbaycan xalqına həqiqi qardaşlıq münasibətidir:**



"Biz Azərbaycanda bunu çox yüksək qiymətləndiririk, çox təşəkkür edirik və bunu özbək qardaşlarımızın bizim Ulu Öndərə, ortaq tariximizə həqiqətən qardaşcasına münasibəti hesab edirik. Bu həm də Heydər Əliyevin bütün həyatını həsr etdiyi bütün Azərbaycan xalqına hörmətdir. Mən atam haqqında səmimi sözlərinə görə Şavkat Mirziyoyev çox təşəkkür edirəm. O, bizim Liderimizi çox sanballı və dəqiq səciyyələndirdi. Heydər Əliyev bütün həyatını Azərbaycana xidmətə həsr edib. Sovet dönəmində də, müstəqillik dövründə də həmişə xalqın yanında olub. Ən ağır dövrdə, xalqımız təcavüzə, təqiblərə məruz qaldığı vaxtlarda o, həmişə xalqın yanında olub. 1990-cı il yanvarın 20-də, Sovet İttifaqının parçalanmasından hələ iki il əvvəl o, sovet ordusunun Bakıya yeridilməsi, Azərbaycanın yüzlərlə günahsız vətəndaşının öldürülməsi və yaralanması ilə əlaqədar sovet rəhbərliyini açıq pisləmişdi. Bu, böyük siyasi əzmkarlıq tələb edirdi. Ona görə ki, o vaxt Sovet İttifaqının tarixə qovuşacağına hələ nə qədər qaldığı məlum deyildi. O bunu etdi. Ən çətin dövrdə, Naxçıvan Muxtar Respublikası təcavüzə məruz qalanda da o, öz xalqının yanında idi. Naxçıvan Muxtar Respublikasına rəhbərlik edərkən əslində o, Azərbaycanın bu tarixi hissəsini, qədim torpağını təcavüzdən müdafiə etdi. Yenə onun təşəbbüsü ilə 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı məhz Naxçıvanda, Sovet İttifaqı dağılandan və Azərbaycan öz müstəqilliyini bərpa edəndən xeyli əvvəl dövlət bayrağı kimi rəsmən qəbul edilib".

**"Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişik"**

**Ölkə başçısı qeyd edib ki, vətəndaş müharibəsi dövründə xalqın iradəsi ilə məhz Heydər Əliyev 1993-cü ildə vətəndaş müharibəsini dayandırdı və ölkəmizi inkişaf yoluna çıxartdı:** "Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, islahatlar, inkişaf - bütün bunlar onun adı ilə bağlıdır və biz fəxr edirik ki, onun işini davam etdiririk. Vəfatından bir qədər əvvəl öz siyasi vəsiyyətində Azərbaycan xalqına müraciətlə demişdi: "Mənim edə bilmədiklərimi mənim davamçılarım edəcəklər". Biz, onun davamçıları fəxr edirik ki, onun bütün vəsiyyətlərini həyata keçirmişik və ilk növbədə, tarixi ədaləti bərpa etmişik, Azərbaycanın ərazi bütövlüyünü bərpa etmişik".

**"Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı"**

**Prezident İlham Əliyev deyib ki, Heydər Əliyev özbək xalqına böyük sevgi ilə yanaşırdı:** "Onun oğlu kimi, canlı şahid kimi təsdiq edə bilərəm ki, 1970-ci illərdə də onun Şərəf Rəşidoviç Rəşidov ilə dostluğu bütün sovet rəhbərliyinə məlum idi. 1990-cı illərdə də onun İslam Abduqəniyeviç Kərimov ilə dostluğu da xalqlarımıza məlum idi və bu, bizim münasibətlərimizin bugünkü inkişafının təməli idi. Şavkat Mirziyoyev ilə biz də bu şanlı estafeti davam etdiririk. Biz xalqlarımızı inkişaf yolu ilə və sıx qarşılıqlı fəaliyyət yolu ilə aparırıq. Mənim bugünkü dövlət səfərim təkcə bizim niyyətlərimizin təsdiqi deyil, həm də qardaşlıq, dostluq münasibətlərimizin möhkəm təməlinin təsdiqidir. Özbəkistanda Heydər Əliyevin özbək xalqına, Özbəkistana münasibətini çox yaxşı bilirlər. Bu gün biz mənim qardaşım Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanı müstəqil xarici siyasət kursu yürüdən, öz resurslarına güvənən, sosial-iqtisadi inkişafda böyük uğurlar qazanmış qüdrətli müstəqil dövlət kimi görməyə çox şadıq. Şavkat Mirziyoyevin rəhbərliyi ilə Özbəkistanın müstəqilliyinin, müdafiə qabiliyyətinin, iqtisadi potensialının möhkəmlənməsi, sosial məsələlərin həlli, şəhərsalma sahələrində necə böyük uğurlar qazandığını görmək üçün son 5-6 ilə aid statistik rəqəmlərə baxmaq kifayətdir. Biz bütün bunları görürük və dostlar, qardaşlar kimi bütün bunlara görə sevinirik".

**"Heydər Əliyev Azərbaycanda bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib"**

**Özbəkistan Prezidenti Şavkat Mirziyoyev deyib ki, Heydər Əliyev Azərbaycanda bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib:** "Biz hamımız tarixə XX əsrin görkəmli siyasi və dövlət xadimi kimi daxil olmuş Heydər Əliyevi yaxşı tanıyırıq. O, bütün həyatını doğma Azərbaycana həsr edib. Ölkə üçün ən ağır illərdə onun taleyinə görə çox böyük məsuliyyəti cəsarətlə öz üzərinə götürüb, müasir dövlətçiliyin əsaslarını yaradıb, Azərbaycanda bütün sahələrdə genişmiqyaslı dəyişiklikləri uğurla həyata keçirib. O, həqiqətən müstəqil Azərbaycanın memarı idi. Onun qətiyyəti və siyasi iradəsi, zəngin rəhbərlik təcrübəsi və müstəsna liderlik keyfiyyətləri gənc, müstəqil dövləti xilas etdi. Dərin məna daşıyan faktdır ki, iyunun 15-i Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd edilir. Məhz həmin gün Heydər Əliyev ölkə rəhbərliyinə qayıdıb və Azərbaycan Ali Sovetinin sədri seçilib".

**"Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb"**

**Ş.Mirziyoyev bildirib ki, Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb:** "Biz mümkün olan hər yerdə bu barədə danışmışıq, həmişə bunu qətiyyətlə və sərt şəkildə dəstəkləmişik. Bu Qələbə münasibətilə qardaş Azərbaycan xalqını özbək xalqı adından və şəxsən öz adımdan bir daha səmimi qəlbdən təbrik edirəm. Heydər Əliyevin fəaliyyətini, onun sanballı şəxsiyyətini və böyük irsini dünyanın müxtəlif ölkələrinin görkəmli siyasətçiləri və ictimai xadimləri yüksək qiymətləndirirlər. Hörmətli mərasim iştirakçıları, bizim ölkələrimiz arasında dostluq münasibətlərinin, iki xalqın tarixi əlaqələrinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük töhfəsini xüsusi qeyd etmək istərdim. Onunla Özbəkistanın rəhbərləri Şərəf Rəşidoviç Rəşidov, daha sonra İslam Abduqəniyeviç Kərimov arasında etimada əsaslanan səmimi münasibətlər yaranmışdı. Bizim liderlər arasında dostluq iki ölkənin və iki qardaş xalqın sıx qarşılıqlı əlaqə saxlamasına, fəal mübadilələri, o cümlədən humanitar mübadilələri inkişaf etdirməsinə imkan verib. Azərbaycan xalqının Ümummilli Lideri özbək xalqına həmişə böyük hörmətlə yanaşırdı. Hərtərəfli savadlı və əsl ziyalı insan olan Heydər Əliyev bizim tariximizə, mədəniyyətimizə və ənənələrimizə səmimi heyranlığını bildirirdi. Məsələn, 1996-cı ildə Daşkənddə olarkən, Heydər Əliyev Teymurilər Tarixi Muzeyini ziyarət edərək Fəxri qonaqlar kitabında yazdığı qeyddə xüsusi olaraq vurğulamışdı: "Əmir Teymurun xidmətlərinə, onun tarixi irsinə qayğıkeş, hörmətli münasibətə görə Özbəkistan xalqı çox sağ olsun". Bu, yüksək mənəviyyat və müdriklik təzahürüdür".

**"Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb"**

**Şavkat Mirziyoyev vurğulayıb ki, Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb:** "Son illərdə bizim birgə səylərimiz sayəsində Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb, konkret məzmun kəsb edib. Hörmətli İlham Heydər oğlu, Sizə, xüsusən ölkələrimiz arasında əməkdaşlığın hərtərəfli möhkəmlənməsinə şəxsi diqqətinizə görə xüsusi minnətdarlığımı bildirmək istərdim. Əminəm ki, Sizin dövlət səfəriniz qarşılıqlı faydalı əlaqələrimizin daha da inkişafına yeni güclü təkan verəcək. Əziz dostlar, bu gün Azərbaycanın Ümummilli Liderinin xoş adını xatırlayaraq, böyük özbək şairi Həmid Alimcanın sözlərini sitat gətirmək istəyirəm: "İnsanın xatirəsi yaşadıqca, o da yaşayır". Əminəm ki, bu sözlər həm Özbəkistanda, həm də Azərbaycanda qəbul edilir. Əminəm ki, dahi insana və vətənpərvərə, qurucu şəxsiyyətə, bu gün həm Azərbaycanda, həm də Özbəkistanda gənclərin örnək hesab etdiyi Heydər Əlirza oğlu Əliyevə həsr edilmiş bu memorial kompleks ölkələrimizin və xalqlarımızın sarsılmaz dostluğunun parlaq simvolu olacaq, bizim doğma Özbəkistanın sakinləri və qonaqları üçün ziyarətgaha çevriləcək. Bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm. Biz bu səfərə çoxdan hazırlaşırdıq. Obyektiv səbəblər olub, pandemiya olub. Demək istəyirəm ki, İlham Heydər oğlu pandemiyadan sonra ilk rəsmi səfərini məhz Özbəkistana edir. Bu, çox rəmzi məna daşıyır. Bir daha demək istəyirəm: "Özbəkistana xoş gəlmisiniz".

**"Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri əlaqələrimizin inkişafına güclü təkan verəcək"**

**Şavkat Mirziyoyev bəyan edib ki, Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfəri əlaqələrimizin inkişafına güclü təkan verəcək:** "Heydər Əliyevin ən böyük arzusu Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi, Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar olması idi. Azərbaycan Prezidenti hörmətli İlham Heydər oğlu Əliyev tarixi ədaləti bərpa edərək bu arzunu uğurla həyata keçirdi".

**İsmayıl**

# Gürcüstanın Avropaya yolu dəyişməyəcək

## Rusiyanın Ukraynada istədiyini ala bilməməsi və hərbi vəziyyətinin ifşa olması keçmiş sovet respublikalarının tədricən Rusiyadan uzaqlaşmasına səbəb olub

**İsmayıl Qocayev**



**Gürcüstanın paytaxtı Tbilisidə ölkənin Avropaya inteqrasiyasına kütləvi dəstək aksiyası keçirilib. "Ayıbdır" hərəkatının parlamentin binası qarşısında təşkil etdiyi "Evə - Avropaya" adlı mitinqə minlərlə insan qatılıb.**

Qanunverici orqanın qarşısındakı Rustaveli prospekti avtomobillərin hərəkəti üçün bağlanıb. Əraziyə polis qüvvələri cəlb olunub, təhlükəsizlik tədbirləri gücləndirilib. Mitinqə Avropa meydanına yürüşlə yekun vurulub. Gürcüstan hökuməti aksiyanı olduqca mənfi qarşılayıb. Baş nazir İrakli Qaribaşvili mitinqi destruktiv qüvvələrin təşkil etdiyini bildirib. Hökumət vətəndaşları təxribatlara uymamağa çağıraraq ölkədə qeyri-sabitliyin yaradılmasına yol verilməyəcəyini bəyan edib. "Evə - Avropaya" şüarlı aksiya Gürcüstanın bir sıra digər şəhərlərində də baş tutub. Məlumat üçün bildirək ki, gürcülərin meydanlara çıxmasına səbəb ölkə Prezidenti Salome Zurabişvilinin çağırışı olub. Zurabişvili Tbilisi hökumətini Qərbə inteqrasiya xəttindən uzaqlaşmaqda ittiham edərək əhalini küçələrə səsləyib.

**Qonşu ölkədəki aksiyaları "Şərq"ə analiz edən politoloq Əhəd Məmmədli xatırladıb ki, Salome Zurabişvili hakimiyyətə gələndə onu "ruspərəst" siyasətçi kimi təqdim edirdilər. Analitikə görə, ola bilər ki, Zurabişvili ilk dövrlərdə hakimiyyətini möhkəmləndirmək üçün Moskvaya "dost" görünüb:** "Rusiyanın Ukraynanı işğalından sonra proseslərə yanaşma tamamilə dəyişib. Qərb sadəcə hərbi deyil, həm də siyasi cəhətdən postsovet ölkələrində əks-hücuma keçib. Qərb çalışır ki, tədricən Rusiyaya loyallığı ilə seçilən postsovet ölkələrinin rəhbərlərini öz tərəfinə çəksin. Qazaxıstan Prezidenti Tokayevin Rusiyada söylədikləri də bundan qaynaqlanır. Rusiyanın Ukraynada istədiyini ala bilməməsi və hərbi vəziyyətinin ifşa olması keçmiş sovet respublikalarının tədricən Rusiyadan uzaqlaşmasına səbəb olub. Zurabişvilinin gürcüləri Qərbə inteqrasiya siyasətinə dəstək verməyə çağırması da bununla bağlıdır. Yəni qonşu ölkədə baş verənlər Gürcüstanın daxili məsələsi yox, Qərb-Rusiya qarşıdurmasının postsovet məkanına yansımasıdır".

# Erməni deputatların Türkiyə səfəri pozitiv addımdır

## Ancaq Ankara-İrəvan əlaqələrinin normallaşması Azərbaycan-Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasından asılıdır



**Ermənistan parlamentinin hakim "Mülki müqavilə" fraksiyasından olan deputatları Hasmik Akopyan və Tsovinar Vardanyan Türkiyənin İstanbul şəhərində səfərdədir.**

Bu barədə qanunverici orqan məlumat yayıb. Bildirilib ki, onlar Parlamentlərarası İttifaqın miqrasiya məsələlərinə həsr olunan forumunda iştirak edirlər. Səfər iyunun 22-də başa çatacaq.

**Politoloq Məhəmməd Əsədullazadə "Şərq"ə bildirib ki, Türkiyə-Ermənistan əlaqələri yeni müstəviyə keçib. Analitikin sözlərinə görə, ötən müddət ərzində tərəflər normallaşma ilə bağlı bir sıra addımlar atıblar. Eyni zamanda xüsusi nümayəndələr arasında təmaslar reallaşıb:** "Lakin hesab edirəm ki, Ankara-İrəvan əlaqələrinin normallaşması Azərbaycan-Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasından asılıdır. Əgər müqavilə bağlanmasa, Türkiyə və Ermənistan arasında etibarlı münasibətlərin formalaşması qeyri-mümkündür. İstənilən halda İrəvan və Ankara arasında təmasların olması, qarşılıqlı səfərlərin baş tutması pozitiv addımdır. Ən azından iki dövlət və xalq arasında etimad mühitinin yaranması üçün faydalıdır. Türkiyə birtərəfli olaraq sülhpərvər siyasətini ortaya qoyur. Amma bu, yetərli deyil. Ermənistan ortaya siyasi iradə qoymalıdır. İlk növbədə Türkiyəyə, türklərə baxış dəyişməlidir. Ermənistan qondarma "soyqırım" iddiasından, Türkiyəyə qarşı ərazi iddialarından və ittihamlarından əl çəkməlidir. Səmimi əməkdaşlıqda maraqlı olduğunu göstərməlidir. Əks halda bu kimi səfərlərin əhəmiyyəti olmayacaq".

**İsmayıl**

# Millət vəkillərinin maaş artımı qıcıq yaradır

## Tural Abbaslı: "Veteranlara verilən 80 manat 150 manata yüksəldilsin, müəllimin, həkimin maaşını artırsınlar"



**Hazırkı qanunvericiliyə əsasən, Milli Məclisin sədri 2475 manat aylıq vəzifə maaşı alırdı. Dəyişikliklə isə Milli Məclisin sədri 3550 manat miqdarında aylıq vəzifə maaşı alacaq.**

Xəbər manşetlərini bəzəyən "Deputatların maaşı qalxır" başlıqlı informasiyalar ictimaiyyətdə bəzən tənqid olunur. Təbii, maaşların qalxması istənilən halda sevindirici hadisədir. Lakin xüsusən deputatların maaşları ilə əlaqəli məsələ gündəmə gələndə əksər vətəndaş deputatların əleyhinə fikirlər səsləndirir. Demək olar ki, parlamentarilərin əməkhaqlarının qalxmasına sərt reaksiya verirlər.

Qeyd edək ki, Milli Məclis sədrinin birinci müavini Milli Məclis sədrinin aylıq vəzifə maaşının 90 faizi, Milli Məclis sədrinin müavini - 85 faizi, Milli Məclisin komitə və komissiya sədri - 80 faizi, Milli Məclisin komissiya sədrinin müavini - 75 faizi, Milli Məclisin deputatı isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında aylıq vəzifə maaşı alacaq.

Milli Məclisin Sədri, onun birinci müavini və müavinləri, Milli Məclisin komitə və komissiya sədrləri və onların müavinləri, Milli Məclisin deputatları hər ay vəzifə maaşlarının iki misli məbləğində vəzifə maaşına əlavə alacaqlar.

**Əhalinin reaksiyalarını "Şərq"ə dəyərləndirən AĞ Partiya başqanı Tural Abbaslının fikirlərinə görə, istənilən dövlət qurumlarında, müəssisələrdə, müəyyən peşə sahiblərinin, eləcə də parlament işçilərinin maaşlarının qaldırılması müsbət haldır:** "İnsanlar parlamenti iqtidarın bir hissəsi sayır. Yoxsulluqlarının səbəbini onlarda görürlər. Cəmiyyət deyir ki, zatən parlamentarilərin imtiyazları var, adi vətəndaşlardan fərqlənir.

Lakin müəllimin, həkimin, pensiya alanın təqaüdü, maaşı qalxmır. Bu səbəbdən məsələ qıcıq yaradır. İnşallah, parlament üzvləri də maaşlarının qalxmasından ruhlanarlar və digər peşə sahiblərinin əməkhaqlarını da qaldırarlar.

Təklif edirik ki, veteranlara verilən 80 manat 150 manata yüksəldilsin. Müəllimin, həkimin maaşını artırsınlar. Necə deyərlər, "qonaqlıq yaxşı şeydi, bir gün sizdə, bir gün bizdə".

Deputatların maaşı qalxırsa, camaatın da əməkhaqının yüksəlməsi bu qıcığın qarşısını ala bilər".

**Aygün Tahir**



# İki ölkə arasında yeni mərhələ başlayıb

## Özbəkistan ilə Azərbaycanın münasibətləri yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb

**Azərbaycan Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistana səfər edib. Prezident İlham Əliyevlə Özbəkistan rəhbəri Şavkat Mirziyoyev arasında geniş tərkibli görüş keçirilib. Görüşdən sonra liderlərin iştirakı ilə Azərbaycan-Özbəkistan arasında sənədlərin imzalanması mərasimi olub. Tərəflər arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın genişləndirilməsi haqqında Bəyannamə də imzalanıb.**

Daha sonra prezidentlər mətbuata bəyanatla çıxış ediblər. Son dövrlər Azərbaycanla Mərkəzi Asiya ölkələri arasında münasibətlərdə canlanma nəzərə çarpır. Bu sırada Özbəkistan da istisna deyil. Dünyada cərəyan edən son hadisələr fonunda Azərbaycanın da üzərində yerləşdiyi ”orta dəhliz”in əhəmiyyəti artmaqdadır. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq ölkəmizdə bir sıra mühüm nəqliyyat-logistika infrastrukturu yaradılıb. Azərbaycan beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub. Bu məqam Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən, o cümlədən Özbəkistandan yükdaşımaların həcminin daha da artmasına təkan verəcək. Ölkələrimiz arasında diplomatik münasibətlərin 1995-ci il oktyabrın 2-də qurulmasına baxmayaraq, Azərbaycan və özbək xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. Bu gün 68 minə yaxın azərbaycanlı Özbəkistanın həyatında fəal iştirak edir. Ortaq tarixi, dini və mədəniyyəti bölüşən, eyni etnik kökə malik olan hər iki xalq arasındakı əlaqələr qədim dövrlərə gedib çıxır. Azərbaycanla Özbəkistan arasında ikitərəfli münasibətlərin inkişafında dövlət başçılarının səfərləri xüsusilə böyük əhəmiyyətə malikdir. Bu baxımdan, Özbəkistan Prezidenti İslam Kərimovun 1996-cı il mayın 26-27-də Azərbaycana ilk rəsmi səfəri xüsusi qeyd olunmalıdır. Qarşılıqlı anlaşma və dostluq şəraitində keçən səfər zamanı iki ölkə arasında 18 sazişdən ibarət xüsusi sənədlər paketi, o cümlədən ”Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında dostluq və əməkdaşlıq haqqında müqavilə” imzalanıb. 2004-cü il martın 23-24-də Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanda dövlət səfərində olub. Səfər zamanı ”Azərbaycan Respublikası və Özbəkistan Respublikası arasında strateji tərəfdaşlığın daha da möhkəmləndirilməsi haqqında Bəyannamə” imzalanıb. Özbəkistan keçmiş Qarabağ münaqişəsində Azərbaycanın ədalətli mövqeyini hər zaman dəstəkləyib. 2021-ci il martın 31-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının videokonfrans formatında keçirilmiş qeyri-formal Zirvə görüşündə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycanı Qarabağın qaytarılması və tarixi ədalətin bərpa olunması münasibətilə təbrik edib. Həmin ilin noyabrında İstanbulda keçirilmiş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə isə Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Özbəkistanın vəsaiti hesabına Füzulidə böyük məktəb inşa ediləcəyini bildirib. Artıq bu istiqamətdə işlərə başlanılıb. Politoloqlar hesab edirlər ki, Azərbaycanın xarici siyasətində yeni mərhələ başlayır. Azərbaycanla Türkmənistan arasında siyasi-iqtisadi əlaqələr yeni müstəviyə keçib. Qırğızıstan prezidenti ötən ay Azərbaycana səfər etmişdi. Türkiyə və Azərbaycan Mərkəzi Asiyanın türk dövlətləri ilə yeni strateji xətt ortaya qoyub.

**Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov ”Şərq”ə deyib ki, Azərbaycan xalqının Orta Asiyadakı qardaş respublikalar arasında Özbəkistana qarşı münasibəti həmişə daha çox istiliyi, səmimiyyəti ilə fərqlənib.** Partiya sədrinin sözlərinə görə, özbəklərin də Azərbaycan musiqisinə, ədəbiyyatına və insanlarımıza xoş münasibəti barədə eyni sözləri demək mümkündür. Çünki bizi ortaq tarixi köklər, eyni milli-mənəvi dəyərlər birləşdirir: ”Ölkələrimiz arasında siyasi əlaqələr də kifayət qədər yüksək səviyyədədir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin 2021-ci il martın 31-də Türk Dövlətləri Birliyinin videokonfrans formatında keçirilmiş Zirvə görüşündə Azərbaycan xalqını 44 günlük müharibə nəticəsində Qarabağın işğaldan azad olunması və tarixi ədalətin bərpa olunması münasibətilə ürəkdən təbrik etməsi də dostluq və qardaşlıq əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisidir. Biz həmin vaxt Özbəkistan dövləti ilə yanaşı sıravi özbəklərin də Azərbaycanın haqq işinə mənəvi dəstəyini açıq hiss edirdik. Özbəkistanın dövlət başçısı Şavkat Mirziyoyevin Daşkənddə Heydər Əliyev Meydanının açılışı zamanı etdiyi çıxışında İkinci Qarabağ müharibəsində qazandığımız Qələbə münasibətilə Azərbaycan xalqını səmimi-qəlbdən təbrik edib. Deyib ki, ”bütün bu illər ərzində Özbəkistan beynəlxalq hüquq əsasında Azərbaycanın ərazi bütövlüyü mövqeyində möhkəm dayanıb”. Bu, həqiqətən də çox qürurvericidir. Məsələyə ”Dost da, düşmən də dar gündə bilinər” prizmasından baxdıqda özbəklərin bu cür prinsipial mövqeyini təqdirəlayiq, müsbət hal kimi qiymətləndirməliyik. Prezident İlham Əliyevin Özbəkistana dövlət səfərinin ümummilli lider Heydər Əliyevin Özbəkistana 25 il əvvəlki səfərinin tarixi ilə üst-üstə düşməsi də heç də təsadüfi hadisə deyil. Bu səfərlər arasında məntiqi bağlılıq var. Bu o deməkdir ki, bizim dostluq və müttəfiqlik münasibətlərimiz, soy birliyimiz əbədidir, davamlıdır. Əlaqələrimiz də daima yüksələn xətt üzrə inkişaf edir”.

Ə.Hüseynov qeyd edib ki, Özbəkistan Mərkəzi Asiyanın ”açar ölkə”si, geosiyasi və geoiqtisadi proseslərdə həlledici həlqəsi hesab olunur: ”Bu baxımdan, Özbəkistan-Azərbaycan əlaqələrinin yüksək strateji münasibətlər səviyyəsinə çatdırılması bütün türk dünyasının gələcək taleyində olduqca mühüm rol oynaya bilər. Təsadüfi deyil ki, bu səfər zamanı tərəflər arasında 19 sənədin imzalanması nəzərdə tutulur. Bu da onu göstərir ki, birgə səylər sayəsində Özbəkistan ilə Azərbaycanın münasibətləri artıq yüksək strateji tərəfdaşlıq səviyyəsinə çatıb və konkret məzmun kəsb etməkdədir. İndi iki dost və qardaş ölkə - Özbəkistan və Azərbaycan arasında münasibətlərin yeni mərhələsi başlayır. Xeyirli-uğurlu olsun!”.

**İsmayıl Qocayev**

# Venesiya Komissiyasının iddiaları bəsit və qərəzlidir

## Elçin Mirzəbəyli: “Əgər onlar sənədi oxusaydılar, başa düşərdilər ki, qanun çap, onlayn media məhsullarının nəşri, yayılması üçün heç bir məhdudiyyət yaratmır”



**”Avropa Şurası nəzdində Venesiya Komissiyasının ”Media haqqında” qanun barədə yekun rəyi nəinki Azərbaycan qanunvericiliyinə, həmçinin Avropa İnsan Hüquqları Konvensiyasına və digər beynəlxalq hüquqi-normativ aktlara zidd iddialar toplusundan başqa bir şey deyil”. Bu sözləri ”Xalq Cəbhəsi” qəzetinin baş redaktoru Elçin Mirzəbəyli deyib.**

Baş redaktor bildirib ki, Venesiya Komissiyasının əksər Avropa ölkələrində tətbiq olunan məhdudlaşdırıcı halların, hüquqi çərçivə və standartların, lisenziyalaşdırılma ilə bağlı prosedur qaydalarının ”Media haqqında” qanunundan çıxarılması barədə mülahizə yürütməsi ən yaxşı halda siyasi və hüquqi riyakarlıq nümunəsidir: ”İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyasının 10-cu maddəsinin 1-ci bəndində qeyd olunur ki, ”Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı və dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq və yaymaq azadlığı daxildir”. Bu maddə dövlətlərin radio-yayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur. Göründüyü kimi, sözügedən konvensiyada söz, fikir və ifadə azadlığının lisenziyalaşdırma tələbi üçün mane olmadığı bildirilsə də, Venesiya Komissiyası Azərbaycana münasibətdə bunun əksini düşünür. Hesab edir ki, bizim ölkəmizdə ”platforma yayımçıları üçün lisenziya tələbi ləğv edilməlidir. Niyə, nə üçün? Səbəbi bilinmir. Çünki əlahəzrət simasız Avropa Şurasının nəzdində Venesiya Komissiyası belə istəyir. ”Media haqqında” qanunu dəfələrlə oxumağıma baxmayaraq, Venesiya Komissiyasının təqdim etdiyi əsaslandırılmamış və arqumentləşdirilməmiş müddəalara yenidən nəzər saldım. Bir daha əmin oldum ki, sözügedən qanunda Avropa İnsan Hüquqları Konvensiyasının 10-cu maddəsinin 2-ci bəndində nəzərdə tutulan məhdudlaşdırıcı hallardan kənar heç nə yoxdur”.

**E.Mirzəbəyli vurğulayıb ki, ”Yekun rəy”də yer alan ilk iddiadan Venesiya Komissiyasının ”qarın ağrısı”nın nədən ibarət olduğu açıq-aşkar nəzərə çarpır:** ”Venesiya Komissiyasının əsas dərdi, ”Media haqqında” qanunun 26-cı maddəsidir. Yəni ”Media subyektinə dair tələblər” və əsasən də bu tələblərin xarici ölkə vətəndaşları ilə bağlı hissəsi. Venesiya Komissiyası hesab edir ki, ”Media haqqında” qanunda yer alan xarici mülkiyyət və xaricdən maliyyələşməyə dair məhdudiyyətlər ləğv edilməlidir. Maraqlıdır, o zaman Venesiya Komissiyası hansı səbəblərdən Rusiyaya məxsus informasiya resurslarının fəaliyyətinə və yayımına qadağaların tətbiq edilməsi ilə bağlı Avropa Komissiyasının, eləcə də Avropa İttifaqına üzv olan ölkələrin hökumətlərinə etirazlarını bildirmir? Avropa Komissiyası, Aİ üzvü olan ölkələr, ABŞ, Kanada və digərləri hansı səbəblərdən öz informasiya təhlükəsizliklərinin qayğısına qalırlarsa, Azərbaycan da həmin səbəblərdən qalır. Bir çox Avropa ölkələrində media resurslarının xaricdən maliyyələşməsinə məhdudiyyətlərin tətbiq edildiyi halda, Azərbaycandan informasiya məkanını xarici agentlərin ayaqları altına döşəməyi tələb etmək, bağışlayın, amma siyasi əxlaqsızlığın nümunəsidir”.

**Baş redaktora görə, Venesiya Komissiyasının iddiaları o qədər bəsit və qərəzlidir ki, komissiya üzvlərinin ”Media haqqında” qanunu oxuduqlarına şübhə ilə yanaşır:** ”Əgər oxusaydılar, başa düşərdilər ki, qanun çap, onlayn media məhsullarının nəşri, yayılması üçün heç bir məhdudiyyət yaratmır. Bunun üçün daha əvvəllər olduğu üçün müvafiq icra orqanlarının məlumatlandırılması yetərlidir. Media Reyestrinin isə media resursunun qeydiyyata alınması, nəşri, yayımı ilə heç bir əlaqəsi yoxdur. Komissiyanın ekspertlərinin iddiaları onlara təqdim olunan ”donosvari” şikayətlər əsasında yazılıb və qanun üzərində heç bir ekspertiza işi aparılmayıb. ”Donosyazanlar” isə narahat olmasınlar. ”Qrant”larını bundan öncə hansı üsul və vasitələrlə alırdılarsa, yenə də eyni üsul və vasitələrlə alacaqlar”.

**İsmayıl**

“Qadınlar arasında ölkəmizdə narkotik vasitələrə qurşananların sayının artmasının digər bir səbəbi də gözəllik salonlarında narkotik vasitələrin insanları arıqladan dərman kimi təbliğ olunmasıdır”



# Narkotikaya qurşanan qadınların sayı çoxalır

## Onları bu yola həm də münasibətdə olduqları kişilər sürükləyir

**Respublika Narkoloji Mərkəzin statistikasına görə, hazırda Azərbaycanda 34 mindən çox narkotik aludəçisi var.**

Bakı Şəhər Probasiya İdarəsinin böyük məsləhətçisi Günay Məmmədovanın həmin şəxslərdən 556-sının qadın, 7-sinin isə yetkinlik yaşına çatmayanlar olduğunu bildirib. Göründüyü kimi, zərif cinsin nümayəndələrinin ”Ağ ölüm”ün girdabına düşməsi artıq Azərbaycanda da narahatlıq ifadə edəcək həddə çatıb. Bəs görəsən, mental dəyərlərə həmişə sadiq olan Azərbaycan qadınlarının narkotik istifadəçisinə çevrilməsinin səbəbi nədir?

Son zamanlar polis əməkdaşları tərəfindən Azərbaycanda narkomaniyaya qarşı mübarizə çərçivəsində geniş əməliyyat tədbirləri keçirildiyini vurğulayan Narkomaniya üzrə ekspert Emil Maqalovun sözlərinə görə, bu statistikaya sadəcə həmin əməliyyatlar zamanı saxlanılaraq məcburi qeydiyyata alınan narkotik istifadəçiləri aiddir. 100-lərlə qeydiyyatda olmayan narkotik istifadə edən qadınlar var ki, hüquq-mühafizə orqanları tərəfindən aşkar edilmədikləri üçün qeydiyyatda deyillər.

Qadınları narkotik maddə aludəçisinə çevirən səbəblərə gəldikdə isə E.Maqalov qadınların narkomaniyaya qurşanmasının müxtəlif səbəbləri olduğunu deyib. Onun sözlərinə görə, qadınlar daha çox münasibətdə olduqları kişilərin təsiri ilə narkotik maddələrdən istifadə etməyə başlayırlar. Narkotik istifadəçisi olan kişilər həyat yoldaşlarını, bəziləri isə məşuqələrini narkotik vasitə aludəçisinə çevirməkdə maraqlı olurlar: “Qadınlar arasında ölkəmizdə narkotik vasitələrə qurşananların sayının artmasının digər bir səbəbi də gözəllik salonlarında narkotik vasitələrin insanları arıqladan dərman kimi təbliğ olunmasıdır. Artıq çəkili olmasını özünə kompleks edən, buna görə depresiyaya düşən qadınlar da özlərinə inam yaratmaq üçün narkotik vasitələrdən istifadə edirlər. Təbii ki, cahil olduqlarından arıqlamaq naminə etdikləri bu hərəkətin cinayət olduğunu və ən əsası ölümə aparan yol olduğunun fərqinə belə varmırlar”.

Vəziyyətdən çıxış yoluna gəldikdə isə ekspert deyib ki, narkomaniyaya qarşı mübarizənin 50 faizi müalicədən keçir. Çünki narkotik ticarəti ilə məşğul olanların 60-70 faizi həm də narkotik istifadəçiləridir: “İnsanlar birinci narkotik maddələrdən az miqdarda istifadə etməyə başlayır və getdikcə dozalarını artıraraq aludəçisinə çevrilir. Məsələn, bu gün 5 manatlıq qəbul edirsə, 3 gündən sonra artıraraq, 10 manatlığa keçir. Elə insan var ki, doza qalxdıqca bir günə 300 manatlıq istifadə edir. Sözsüz ki, hər narkoman gündəlik o qədər məbləği tapa bilməz. Ağrıları dayansın deyə ya maddələri qəbul etməli, ya da müalicə almalıdır. Ona görə də oğurluq edir, gün ərzində fərz edək ki, 100 manat ”qazanır”. Əvvəl qramın 10 yerə bölünmüş hissəsini əldə edirsə, indi özü bir qram alır, 15 yerə bölüb satır. Belə olduğu təqdirdə həm sabaha pulu, ümidi olur, həm də dərmanı. Ona görə də ilk növbədə narkomanların liderlərini tapmaq lazımdır. Narkotik maddələrin satışı ilə məşğul olan insanlar arasından söz sahibi olanları aşkarlayıb, müalicəyə cəlb etmək və “lokma”dan çıxandan sonra onlardan istifadə etməklə digər şəxsləri də detoks etmək lazımdır. Çünki onların narkotiklə əlaqəlilərə çıxışı daha asan olur”.

**Səhiyyə Nazirliyinin ”zərərin azaldılması” proqramını xatırladan E.Maqalov deyib ki, 15 ildir fəaliyyətdə olan layihənin küçə işçiləri Qeyri Hökumət Təşkilatları işləyir. Bu insanlar narkomanlarla ünsiyyət yaradıb onları müalicəyə cəlb edir:** “Amma Azərbaycanda narkoloji dispanserlərin sayının az olması bu sahədə çox ciddi çatışmazlıq yaradır. Narkodispanserlərdə yer sayı məhduddur. Yaxşı olar ki, əvvəlcə reabilitasiya mərkəzləri qurulsun. Ölkədə narkomanların keyfiyyətli müalicəsi təşkil edilsin. Narkodispanserlərdən sonra bunlar reabilitasiya edilməlidir. Çünki böyük əksəriyyəti müalicə alsalar da, bir müddət sonra yenidən narkotik maddələrdən istifadə etməyə başlayır. Mərkəzlər var, amma özəl sektordadır, bahalıdır və hər kəsin buna imkanı çatmır. Ona görə də dispanserdə müalicə alanların çox az hissəsi asılılıq vəziyyətindən çıxa bilir, qalanları yenidən narkotik istifadəçisinə çevrilir”.

**Şəymən**

# “İran müstəqil Azərbaycanı həzm edə bilmir”

## Azər Rəşidoğlu: “Allahşükür Paşazadə, Hacı Şahin, Hacı İlqar öz nüfuzlarından istifadə edərək, aclıq aksiyasını dayandırmalıdırlar”





**”Dinin siyasiləşməsinin tərəfdarı deyiləm. Bütün problemlər insan haqları müstəvisində həllini tapmalıdır. Cəmiyyət yekcins deyil, odur ki, Mirzə Cəlilin ”Anamın kitabı”nı həyatımızda yaşamaq istəmiriksə, Anamızın (Vətənin) ölməsini istəmiriksə, qarşılıqlı hörmətlə yaşamalıyıq”.**

*Bu barədə ”Şərq”ə siyasi şərhçi Azər Rəşidoğlu bildirib. O qeyd edib ki, heç bir dövlətin rəhbəri bizə nümunə deyil:* ”Ümumiyyətlə, insanlar dəyər deyil, ancaq dəyər daşıyıcısıdır və biz dəyərlərə sadiq qalmalıyıq, fərdlərə deyil. Dini mövzu ağır mövzudur və məzhəb savaşı yüz illərdir, gedir. Əgər bir dini cərəyan vurulursa, digər daha radikal cərəyan o boşluğu doldurur.

Bunun isə fəsadları qaçılmaz olacaq. Bayrağımız bütün təbəqələri birləşdirir. Bayrağımıza sadiq çıxaq. Rəsulzadə ”Əsrimizin Siyavuşu”nda bu problemin həllini göstərir. Dahi öndərin ideyasına sadiq çıxaq. İrana münasibətim bəllidir. Mən Vahid Azərbaycan arzusundayam.

Siyasi şərhçi hesab edir ki, bir qrup dindarın aclıq aksiyasından klanlar və xarici ölkələr də istifadə edir: ”Qərb anlayır ki, Azərbaycanda dünyəviliyə qorxu yoxdur, odur ki, ”islam xoxan”ı düzəltməklə onların rəyini dəyişmək mümkün olmayacaq. Odur ki, təklif irəli sürmüşəm ki, hörmətli şeyximiz Allahşükür Paşazadə, Hacı Şahin, Hacı İlqar öz nüfuzlarından istifadə edərək, aclıq aksiyasını dayandırmalıdırlar.

Nə qədər ki gec deyil. Məni ən çox ölkənin taleyi düşündürür və analitik olduğuma görə bunun hansı faciələrə səbəb olacağını da anlayıram. Bəli, İran müstəqil Azərbaycan ideyasını qəbul etmir. Lakin Tehranın agentlərini yalnız dindarların arasında axtarmaq yanlışdır. İran bu qədər sadə dövlət deyil ki, öz təsir agentlərini de-şifrə etsin.

Azərbaycan şiələrinin çoxu 44 günlük savaşda İranın tutduğu mövqe ilə razılaşmır və Tehranı tənqid edir. Odur ki, çaxnaşmanı kim salır sualına bir qədər dərindən cavab axtarmaq lazımdır”.

**Çimnaz Şahlar**

# Akademiyanın keçmiş prezidenti 88 yaşında dünyasını dəyişib

## Eldar Salayev II Fəxri Xiyabanda torpağa tapşırılıb




**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) keçmiş prezidenti fizika-riyaziyyat elmləri doktoru, akademik Eldar Salayev də haqq dünyasına qovuşub. Böyük alim, bacarıqlı elm adamı dəyərli ziyalı kimi bütün ölkə ictimaiyyətinin sevgisini qazanan Salayevin vəfatı bütünlükdə elmi ictimaiyyət üçün ağır itki kimi dəyərləndirilib.**

Ömrünün 88-ci baharında dünya ilə vidalaşan alimin yaratdığı cihazlar, gördüyü işlər sayəsində əzizi xatirəsi xalqımızın yaddaşında həmişə yaşayacaqdır.

E.Salayev Eldar Yunus oğlu 1933-cü ildə dekabrın 31-də Naxçıvan şəhərində anadan olub. 1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda elmi işlər üzrə direktor müavini işləyib.

1972-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı adını, 1975-ci ildə fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini alıb. 1979-cu ildən professordur. 1980-ci ildə Elmlər Akademiyasının müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilib. 1983-1997-ci illərdə Azərbaycan EA-nın prezidenti olub.

O, akademiyada dörd institutun əsasını qoyub: Əlyazmalar İnstitutu, Arxeologiya və Etnoqrafiya İnstitutu, Millətlərarası Münasibətlər İnstitutu, Xəzərin Ekoloji problemləri İnstitutu.

E.Salayev Milli Elmlər Akademiyasının prezidenti kimi humanitar elmləri nüfuzlu dəqiq-texniki elmlərlə eyni müstəviyə qaldırmaq istəyirdi.

O, Xəzərin və respublikanın artmaqda olan ekoloji problemlərinin qarşısını almaq üçün tədbirlər planı hazırlayıb. Bu plana əsasən zavod və fabriklər, istehsalat müəssisələri ilə akademiya arasında sıx əməkdaşlıq yaranıb. Eldar müəllimin başçılığı ilə bir sıra regionlarda - Şamaxı, Naxçıvan, Şəki, Qubada elmi-tədqiqat müəssisələri yaradılıb.

E.Salayev bərk cisim fizikası, kvant elektronikası və fotoelektronika sahəsində görkəmli alimdir.

O, başlıca olaraq yeni mürəkkəb yarımkeçiricilərin alınması, fundamental tədqiqi, onlar əsasında yeni cihazların yaradılması və xalq təsərrüfatına tətbiqi ilə məşğul olub. Bu cihazlar Kurçatov adına Atom enerji institutunda termo nüvə sintez zamanı yüksək temperaturlu plazmaya nəzarət qurğusu, lazer nişanlanma sistemi, yerin təbii sərvətlərini tədqiq edən "Kosmos", "Resurs-01", "Resurs-09" kosmik aparatları, Mars planeti və onun Fobos peykini tədqiq edən "Fobos" avtomatik stansiyası, müxtəlif markalı və təyinatlı pilotsuz sistemlər, 1984-cü ildə birinci dəfə Moskva şəhəri və vilayətinin istilik xəritəsini çəkən uçan aparat, müxtəlif raket, təyyarə və yerüstü döyüş maşınlarında və s. müvəffəqiyyətlə istifadə olunub.

E.Salayev 420 elmi əsərin və 88 ixtiranın və patentin, 4 monoqrafiyanın müəllifidir. O, ölkəmizdə və onun hüdudlarından kənarda təşkil edilən çoxsaylı elmi tədbirlərdə Azərbaycan elmini uğurla təmsil edib. Onun elmi rəhbərliyi ilə 40-dan artıq fəlsəfə və elmlər doktoru yetişdirilib.

"Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilib, akademik Vavilov adına, H.Z.Tağıyev adına, N.Nərimanov adına mükafatların laureatıdır.

E.Salayevin ictimai-siyasi fəaliyyəti də uğurlu olub. O, Azərbaycanda başlanan Milli Azadlıq Hərəkatına dəstək verən yüksək vəzifəli ziyalılarımızdan biri olmaqla yanaşı ölkənin ilk siyasi partiyası olan Azərbaycan Milli İstiqlal Partiyasının qurucusu olaraq partiyanın təşkilatlanmasında və inkişafında aktiv iştirak edib. E.Salayevin vəfatı xaqlımız, millətimiz, eləcə də milli istiqlalçılar üçün ağır itkidir. Tanınmış alim, bacarıqlı elm təşkilatçısı, səmimi və qayğıkeş insan, yüksək mədəniyyətə və geniş dünya görüşünə malik Eldar Yunis oğlu Salayevin xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Qeyd edək ki, sabiq AMEA prezidenti ilə vida mərasimi başa çatıb.

Mərasimdə elm və təhsil xadimləri, mərhumun dostları, ailə üzvləri, yaxınları və ictimaiyyət nümayəndələri iştirak ediblər. Çıxış edənlər E.Salayevlə bağlı xatirələrini bölüşüb, onun elm və təhsil sahəsindəki xidmətlərindən danışıblar.

*Mərhum II Fəxri Xiyabanda torpağa tapşırılıb.*

**P.s. "Şərq" qəzetinin rəhbərliyi və kollektivi də görkəmli akademik Eldar Salayevə Allahdan rəhmət diləyir! Ruhu şad olsun!**

**Şəymən**



# "Anadolu Qartalı"nda Azərbaycan hərbiçiləri də iştirak edir

## Ədalət Verdiyev: "İki tərəfin orduları arasındakı sıx münasibətlər, birgə təlimlər regionun təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır"

**Türkiyənin Konya şəhərində "Anadolu Qartalı - 2022" beynəlxalq taktiki-uçuş təlimi başlayıb. Təlimlər 20 iyun - 1 iyul tarixləri arasında Konyada 3-cü Əsas Reaktiv Baza Komandanlığında reallaşır.**

"Anadolu Qartalı-2022" təlimi NATO-nun "Ramstein DUST-2022/2" təlimi ilə birlikdə gerçəkləşdirilir. Təlimlərə Türkiyə Hava və Dəniz Qüvvələri ilə yanaşı, Azərbaycan, İngiltərə, İordaniya, Pakistan və NATO hərbçiləri də qatılıb. Qeyd edək ki, təlimin ilkin mərhələsində iştirakçılara təlimatçılar tərəfindən tərtib olunan plan üzrə təhlükəsizlik qaydaları çatdırılıb, uçuş və digər tapşırıqlarla bağlı məsələlər izah olunub. Plana uyğun hərbi pilotlar şərti düşmənin hava hücumundan müdafiə vasitələrini məhv etdikdən sonra təyin olunan hədəflərə aviasiya zərbələri endiriblər. Təlimdə qarşıya qoyulan tapşırıqlar uğurla yerinə yetirilib.

**"Anadolu Qartalı - 2022" təlimlərini "Şərq"ə dəyərləndirən hərbi ekspert Ədalət Verdiyev bildirib ki, təlimlərin keçirildiyi 3-cü əsas raket bazasının komandanlığı unikal imkanlara malikdir:** "Dünyada bu tip cəmi 3 taktiki - təlim mərkəz var. Avropada isə Konya təlim mərkəzinin analoqu yoxdur. Təlimlərdə Türkiyə arsenalına daxil olan "F-16", "KC-135", "E-7T HİK", "ANKA-S", Türkiyə Hərbi Dəniz Qüvvələri Komandanlığının " Freqat və artilleriya gəmisi", Azərbaycanın "Su-25" və "MiQ-29", Britaniyanın "Eurofighter Typhoon" Pakistanın "F-16", İordaniyanın isə "E-3A" təyyarələri iştirak edəcək.

Bolqarıstan, Çad, Efiopiya, Cənubi Afrika Respublikası, Gürcüstan, Qətər, Şimali Makedoniya, Kosovo, Liviya, Malayziya, Tunis, Özbəkistan və Oman müşahidəçi qismində olacaqlar.

Gələcəkdə müşahidəçi ölkələrdən bəzilərinin təlim iştirakçılarına çevriləcəyi gözlənilir".

**Hərbi ekspert təlimlərin məqsədlərini açıqlayaraq bildirib ki, təlimlər müttəfiq qüvvələr arasında qarşılıqlı əlaqə yaradır və dəstəyi artırır:** "Təlimlərin keçirilməsində əsas amal pilotların əməliyyat hazırlıq səviyyələrini yüksəltmək, birgə və inteqrasiya olunmuş əməliyyat üsullarını sınaqdan keçirmək, real əməliyyat şəraitində itkiləri minimuma endirmək, milli və müttəfiq qüvvələrin birgə əməliyyat keçirmə imkan və qabiliyyətini təkmiləşdirməkdən ibarətdir. İki qardaş ölkə arasında keçirilən ikitərəfli və çoxtərəfli təlimlərin siyahısı genişlənir. Azərbaycan-Türkiyə əlaqələri hərbi əməkdaşlığın bütün sahələrini əhatə edir. İki tərəfin orduları arasındakı sıx münasibətlər, birgə təlimlər regionun təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır".

**Aygün Tahir**




# 6 ay müşahidə aparılıb

## DTX Gömrük Komitəsində əməliyyata başlayıbsa, vəziyyət ciddidir

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) Bakıda əməliyyat keçirib. Dövlət qurumlarının birində baş tutan əməliyyatda vəzifəli şəxslər saxlanılıb. Qeyri-rəsmi məlumata görə, əməliyyat Dövlət Gömrük Komitəsinin Abşeron və İpək Yolu terminallarında həyata keçirilib.**

Əməliyyatla bağlı rəsmi açıqlama veriləcəyi gözlənilir. Qeyd edək ki, Bakı Baş Gömrük İdarəsinin "Abşeron" Gömrük Postunun rəisi vəzifəsinə bu ilin yanvar ayında Bəhruz Hüseyn oğlu Əsgərli təyin edilib. O, bu təyinata qədər "Abşeron" gömrük postunda rəis müavini vəzifəsini tutub. Dövlət Gömrük Komitəsi sədrinin eyni gündə verdiyi əmrlə Bakı Baş Gömrük İdarəsinin "Abşeron" Gömrük Postunun rəisi Muxtar Fazil oğlu Şükürov isə vəzifəsindən azad edilərək, Gömrük Komitəsi katibliyinin rəisi təyin edilib. Onu da xatırladaq ki, ötən ilin may ayında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi (KQMBİ) də "İpək Yolu" gömrük postunda əməliyyat aparmış və orada inspektor işləyən Mirağa Ağayevi həbs etmişdi.

**1992-ci ildə Gömrük Komitəsinin sədr müavini vəzifəsində çalışmış siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə deyib ki, DGK-də keçirilən əməliyyatlar onda şok effekti yaradıb. Professorun sözlərinə görə, bu məsələ uzun müddət gündəmə gəlsə də, o, Gömrük Komitəsində ciddi qanunsuzluqlara yol verildiyinə inanmayıb:** "Dövlət Təhlükəsizlik Xidməti elə bir qurumdur ki, onlar hansısa əməliyyat keçirməzdən öncə, ən azı 3 aydan 6 ayadək müşahidə aparırlar. Əgər əməliyyat başlayıbsa, həbslər icra olunursa, artıq şübhəyə yer qalmır. Gömrük Komitəsindəki bəzi şəxslər öz maraqlarını güdürsə, DTX bilavasitə dövlətin maraqlarını güdür. Əgər ilk əməliyyat terminallardan başlayıbsa, deməli, elektron sənədlər götürülüb. Bütün gömrük bəyannamələri burada doldurulur. Ölkəyə nə gəlib-çıxırsa, hamısı terminalda sənədləşdirilir. Yəni həmin yerlər Komitənin "beyni" sayılır. Bundan qabaq da həbslər olmuşdu, amma generallar yox, aşağı rütbəlilər saxlanılmışdı. Mətbuatda DGK-nin sədr müavini İqbal Babayevin adı hallandı. Amma özü bunları təkzib etdi, dezinformasiya olduğunu söylədi. Sözün düzü, onun adının belə məsələyə qarışdığına mən də inanmıram. Çünki İ.Babayev peşəkar adamdır. İT üzrə güclü mütəxəssisdir, elmlər doktorudur. Ancaq ümumi halda Gömrük Komitəsindən şikayətlər edilirdi. Digər qurumlarda olduğu kimi bu Komitədə də şəxsi maraqlarına qulluq edənlərin olması mümkündür".

> ***"Bura məmurların və deputatların qohumlarının lövbər saldığı bir quruma çevrilib"***

*C.Nuriyev birbaşa Komitə rəhbərinin günahlandırılmasını doğru saymayıb:* "Dövlət Gömrük Komitəsi məmurların və deputatların qohumlarının lövbər saldığı bir quruma çevrilib. Mənim rəhbərlikdə təmsil olunduğum vaxtlarda da vəzifəli şəxslərin övladları, kürəkənləri, qohum-əqrəbaları ora doluşmuşdu. Hansısa problem yarandıqda vəzifəli adamların yaxınları bu və ya digər formada məsuliyyətdən qaçırdılar. Əgər DTX ora giribsə, deməli, vəziyyət ciddidir".

**İsmayıl Qocayev**

# Türk ölkələri arasındakı əlaqələr genişlənir

## "Azərbaycan Cənubi Qafqazda, Özbəkistan isə Mərkəzi Asiyada qovşaq rolunu oynayır"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 21-də Özbəkistan Respublikasına dövlət səfərinə gedib.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı İslam Kərimov adına Daşkənd Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi Özbəkistanın Baş naziri Abdulla Aripov və digər rəsmi şəxslər qarşılayıblar.

**Səfərin əhəmiyyətini dəyərləndirən politoloq İlqar Vəlizadə "Şərq"ə açıqlamasında bildirib ki, Özbəkistan böyük potensiala sahib bir ölkədir və son zamanlarda əlaqələri genişlənir:** "Hər iki ölkə iqtisadi və nəqliyyat baxımından inkişaf etmiş ölkədir. Azərbaycan Cənubi Qafqazda, Özbəkistan isə Mərkəzi Asiyada qovşaq rolunu oynayır. Bu qovşaqların birləşməsi hər iki ölkənin iqtisadi potensialını artırır. Digər tərəfdən türkçülüyün və türk dünyasının birləşməsinə şərait yaradır. Türk Birliyi son zamanlarda güclənir və türk köklü ölkələr arasındakı ikili əlaqələr daha da genişlənir. Dünyada gedən mürəkkəb proseslər var. Bura Rusiya-Ukrayna müharibəsini, Çinlə Qərb arasında qarşıdurma və digər hadisələr daxildir. Ümumilikdə türk birliyi bütün bunlara verilən bir cavabdır".

**Nihat Müzəffər**

# Tokayevin anti-Rusiya çıxışı bir plandır

## Kreml bununla müttəfiq gördüyü Qazaxıstanı Qərbin sanksiyaları və təzyiqlərindən yayındırmağa çalışır

**Ötən gün Rusiyada keçirilən "Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumu" Qazaxıstan Prezidenti Qasım Jomart Tokayevin sərgilədiyi mövqe ilə yadda qaldı. Tokayev Rusiya Prezidenti Vladimir Putinin yanında qondarma "respublikaların" müstəqilliyini qəbul etməyəcəyini dedi.**



> ***Mümkündür ki, yaxın zamanlarda proses Belarusla və ya başqa formada cərəyan etsin***

Əlavə olaraq Rusiyanın ona təqdim etmək istədiyi "Aleksandr Nevski" ordenindən imtina etdi. Bəzi analitiklərin iddiasına görə, Tokayevin davranışları ilk başda Kremlə qarşı mövqe kimi görünsə də, əslində elə deyil. Onların fikrincə, Rusiya-Ukrayna müharibəsinin günü-gündən uzanması və Qərbin sanksiyaları genişləndirməsi rəsmi Moskva ətrafında çəmbəri daraldıb. Sanksiyalar səbəbindən iqtisadi baxımdan ciddi zərbə alan Kreml prosesin gec-tez ona yaxın olan ölkələrə sirayət etməsindən ehtiyat edir. Xüsusilə 3 ölkə - Belarus, Qazaxıstan və Ermənistan hazırda Moskvaya ən yaxın ölkələrdir. Rusiya-Ukrayna müharibəsi fonunda bu ölkələrə də sanksiyaların tədbiq edilməsi mümkündür.

**Siyasi şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında bildirib ki, rəsmi Moskva tətbiq edilən sanksiyaların onunla əməkdaşlıq edən ölkələrə sirayət etməməsi üçün Avropanın gözündən pərdə asmağa çalışır.** Analitik vurğulayıb ki, Tokayevin "Aleksandr Nevski" ordenindən imtina etməsi və Putinin yanında "dxr" və "lxr"i "kvazidövlət"lər adlandırması rəsmi Kremlin razılığı ilə baş tutan məsələlərdir: "Tokayev sözləri "cəsarət" tələb edən addımdır. Lakin onun öz fikirlərini BMT Nizamnaməsi ilə izah etməsi Kremlin niyyətini aydınlaşdırır. Tokayev qeyd edib ki, "BMT Nizamnaməsindəki iki əsas prinsip - ölkələrin ərazi bütövlüyü və xalqların öz müqəddəratını təyin etmək hüququ indi bir-biri ilə ziddiyyət təşkil edir. Lakin bütün dünyada millətlərin öz müqəddəratını təyinetmə hüququ reallaşarsa, indi BMT-yə üzv olan 193 dövlət əvəzinə 500-600 dövlət yaranacaq ki, bu da xaosa səbəb olacaq". Kremlin istəyi ilə Tokayevin dediklərindən çıxan ilkin məntiq odur ki, Qazaxıstan heç də Rusiyanı dəstəkləmir və Kremldən fərqli olaraq beynəlxalq hüquqa hörmət edir. Eyni zamanda Tokayev yeri gəldikdə Putinə sözünü deyə bilir və qazax xalqınn maraqları çərçivəsində davranır. Bütün bunlar Qərbin gözündən pərdə asmaqdan başqa bir şey deyil. Nəticə etibarilə hazırda Qazaxıstanla Rusiya arasında bu və ya başqa formada gərginliyin olması reallıqdan uzaqdır. İstər Tokayevin səsləndirdiyi "antirusiya" bəyanatları, istərsə də Rusiyanın buna cavab olaraq Qazaxıstan neftinin nəqlini dayandırması Moskvanın planları əsasında baş tutur. Kreml bununla müttəfiq gördüyü Qazaxıstanı Qərbin sanksiyaları və təzyiqlərindən yayındırmağa çalışır. Mümkündür ki, yaxın zamanlarda proses Belarusla və ya başqa formada cərəyan etsin".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi;**

# Bizə yaxın ölkə...

## İtaliya-Azərbaycan münasibətlərinin tarixi çox böyükdür

**Qlobal miqyasda etibarlı tərəfdaş kimi nüfuz qazanan Azərbaycan regionun lokomotivi olaraq yüksək reputasiyaya malikdir. Rəsmi Bakı hələlik Ermənistan istisna olmaqla, yerləşdiyi regionun bütün ölkələri, o cümlədən Qərb dövlətləri ilə müxtəlif platformalarda iki və çoxtərəfli əməkdaşlıq əlaqələrinə sahibdir. Bu, özünü siyasi-iqtisadi münasibətlərdə, xarici ticarət dövriyyəsində göstərir.**

Ümumiyyətlə, Qərbə inteqrasiyanın sürətləndirilməsi, siyasi-iqtisadi əlaqələrin və beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi, xarici dövlətlərlə ikitərəfli əlaqələrin inkişafı prioritet sayılır. O baxımdan Azərbaycan əksər ölkələrlə, ələlxüsus Avropa Birliyi dövlətləri ilə sıx əməkdaşlığı davam etdirir. Azərbaycanın strateji əməkdaşlığı uzun illərdir sürdürdüyü mühüm Avropa ölkələrindən biri də İtaliyadır. İtaliya Azərbaycanın Avropa Birliyində əsas tərəfdaşlarından biridir. Azərbaycan da öz növbəsində İtaliyanın Cənubi Qafqazda ən böyük tərəfdaşıdır. İtaliyanın Cənubi Qafqazla apardığı ticarətin 95 faizi Azərbaycanla aparılır. İtaliya nəinki təkcə Avropa qitəsində, ümumən dünya miqyasında ən yaxın tərəfdaşlarımızdan biridir. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. Dost ölkə olaraq İtaliya işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün Türkiyədən sonra dəvət etdiyimiz ilk ölkələrdən biri olub. Hazırda italyan şirkətlərinin Qarabağda icra etdiyi çoxlu layihələr var. İtalyan memarlar Şuşadakı tarixi abidələri və məscidləri bərpa etmək üçün dəvət alıblar. Hazırda 3 şəhərdə İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da İtaliya şirkətləri tərəfindən həyata keçirilir.

2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlıq üzrə iki mühüm bəyannamə imzalanıb. Qarşılıqlı səfərlər, davamlı müzakirələr və imzalanan sənədlər Azərbaycan-İtaliya arasında güclü əlaqələrin olduğunu göstərir. Hazırda hər iki ölkə əməkdaşlığın davam etdirilməsində və daha da genişləndirilməsində maraqlıdır. Bu isə ondan xəbər verir ki, iki ölkə arasındakı strateji əməkdaşlıq növbəti illərdə də artan istiqamətdə davam edəcək. Tərəflər arasında enerji əməkdaşlığında yeni imkanlar da var. Azərbaycan İtaliyaya neft təchizatının bir nömrəli mənbəyidir. İtaliya-Azərbaycan əlaqələrinin xüsusi önəm kəsb etdiyini göstərən məqamlardan biri də ötən gün Bakıda İtaliyanın Milli Bayramının qeyd olunması idi. İtaliya-Azərbaycan diplomatik və dostluq münasibətləri ilə əlaqədar keçirilən tədbirdə İtaliya səfiri Klaudio Taffuri və səfirliyin nümayəndələri ilə yanaşı, Prezidentin köməkçiləri Hikmət Hacıyev, Anar Ələkbərov, Təhsil naziri Emil Əmrullayev, energetika nazirinin müavini Samir Vəliyev iştirak ediblər. İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri bu hadisənin Azərbaycan ilə İtaliya arasında diplomatik əlaqələrin qurulmasının 30-cu ildönümü ilə bir vaxta düşdüyünü deyib: "Artıq 30 ildir ki, ölkələrimiz arasında əlaqələr bütün sahələrdə sürətlə inkişaf edir. Bu gün bu əlaqələr xüsusi səviyyəyə çatıb. Koronavirus pandemiyası zamanı Azərbaycanın İtaliyaya dəstəyini də vurğulamaq lazımdır. Bu, ilk növbədə, ölkələrimiz arasında dostluq və sıx əlaqələrin jestidir". Klaudio Taffuri İtaliyanın xarici işlər nazirinin Azərbaycana səfəri zamanı Bakıda Azərbaycan-İtaliya Universitetinin yaradılmasına dair iki ölkə arasında strateji sazişin imzalanmasının humanitar sahədə əlaqələrin inkişafına zəmin yaratdığını xatırladıb. Çıxış edən Təhsil naziri Emin Əmrullayev iki ölkə arasındakı dostluq münasibətindən danışıb: "İtaliya Cənubi Qafqazda dövlət səviyyəsində ilk nümayəndəliyini Bakıda açıb. Bu faktor iki ölkə arasındakı əlaqələrin çoxşaxəli olmasının bariz nümunəsidir".

**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə bildirib ki, İtaliya zəngin mədəniyyət və fenomenal dövlətçilik tarixinə malik bir dövlətdir. Ekspertin sözlərinə görə, bu xalq bəşəriyyətə mədəniyyət, incəsənət, rəssamlıq sahəsində dahi şəxsiyyətlər verməklə yanaşı parlamentli dövlət nümunəsini də bəxş edib:** "Avropanın cənubunda yerləşən istiqanlı və çılğın italyanların xaraktercə avropalılara deyil, bizə yaxın olması münasibətlərimizin problemsiz qurulmasında az rol oynamayıb. Bu münasibətlər bəyanatlarda deyil, ciddi hüquqi baza üzərində qurulub. İndiyə qədər ölkələrimiz arasında geniş spektrdə işləyən sənədlər toplusu imzalanıb. İtaliya-Azərbaycan münasibətlərinin əsası isə müstəqillik tariximizdə Heydər Əliyev tərəfindən 1997-ci ildə İtaliyaya səfəri zamanı qoyulub. Bu ənənə isə dövlət başçısı İlham Əliyev tərəfindən inkişaf etdirilərək günümüzdə yaxın tərəfdaş və dost ölkə səviyyəsinə qaldırılıb. Hazırda İtaliya-Azərbaycan arasında ticarət dövriyyəsi 10 milyard dollara yaxındır. 2010-cu ildə İtaliya senatının Qarabağla bağlı qətnaməsində Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi bu ölkəyə etibarımızı və etimadımızı artırdı. İtaliyadan 44 günlük müharibə ərəfəsində yüksək səviyyədə siyasi dəstək aldıq. İtaliya karbohidrogen ehtiyatlarının istehsalında da əhəmiyyətli fəaliyyət nümayiş etdirir. Eləcə də işğaldan azad olunmuş ərazilərində bərpa işlərində iştirak edir. Əməkdaşlığımız hər iki ölkənin maraqlarına tam uyğundur".



***"Bu ölkədən 44 günlük müharibə ərəfəsində də yüksək səviyyədə siyasi dəstək aldıq"***

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**



# Müəllimin işdən azad olunması ilə iş bitmir

## Təhsil ocaqlarında rüşvətin kökü kəsilməlidir

**"Son günlərdə Azərbaycanın bəzi ali təhsil müəssisələrində xoşagəlməz hadisələr yaşanır. Bununla bağlı mövqeyim birmənalı olaraq neqativdir. Bu kimi hallar təhsilə yaraşmayan hərəkətlərdir. Biz uzun müddətdir ki, bu kimi zərərli halların nəticələrini görürük. Düşünürəm ki, hələ uzun illər də görəcəyik".**

Bu barədə Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, Azərbaycan Gənc Alim, Doktorant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov "Şərq"ə açıqlamasında deyib. O, təhsil sektorundakı rüşvət və korrupsiya halları haqqında danışarkən qeyd edib ki, birmənalı olaraq təhsil ocaqlarında rüşvət olmamalıdır: "Bir neçə gün öncə Bakı Dövlət Universitetinin müəlliminin rüşvət tələbi ilə bağlı səs yazısını ürək ağrısı ilə dinlədim. Daha sonra prosesləri izləyərkən məlum oldu ki, həmin şəxs universitetdən xaric olunub. Amma iş bununla bitmir. Düşünürəm ki, ali təhsil ocaqlarının rəhbərləri belə hallarla mübarizədə hər zaman qətiyyətli olmalıdır. Deməli, bu yöndə boşluqlar olub ki, belə hallar baş verib. Ayrı-ayrı universitetlərdə bu kimi xoşagəlməz halların olması ilə bağlı fikirlər eşidirik. Mən ali təhsil müəssisələrimizi bu cür işlərin məkanı kimi görmək istəmirəm. Bu müəssisələrimizi inkişafımızın bütövlükdə fövqündə duran qurumlar kimi istəyirəm. Bu baxımdan hesab edirəm ki, təkcə həmin müəllimin azad olunması ilə iş bitmir. Məsələ aiddiyyəti qurumlar tərəfindən araşdırılmalıdır".

**İ.Orucov Təhsil Nazirliyinin bu məsələlərdəki mövqeyinə toxunub. O bildirib ki, ali təhsil müəssisələrinin bir qədər sərbəstliyi olduğuna görə, Təhsil Nazirliyi onların fəaliyyətlərinə çox müdaxilə edə bilmir:** "Amma hesab edirəm ki, Təhsil Nazirliyi və Nazirliyin rəhbərliyi bu məsələ ilə bağlı ciddi araşdırmalara başlamalıdır. O müəllim belə təklif irəli sürürsə, deməli, indiyə qədər bu fəaliyyətlə məşğul olub. Aydınlaşdırılmalıdır ki, həmin müəllim bu günə qədər işini necə davam etdirib.

Mən Təhsil Nazirliyi yanında İctimai Şuraya üzv olandan bəri prosesləri daha yaxından izləyirəm. Təhsil Nazirliyində bu cür məsələlərə qarşı barışmaz mövqe mövcuddur. Düşünmürəm ki, belə hallarda nazirliyin adı hallana bilər. Bu baxımdan nazirlik də davamlı olaraq, bu işin üzərinə getməlidir. Araşdırmalardan sonra mütləq şəkildə bütün aidiyyəti şəxslər cəzalandırılmalıdır. Bu cəza o qədər sərt olmalıdır ki, digər ali təhsil müəssisələrinə də nümunə olsun".

**Sədrin sözlərinə görə, rüşvət və korrupsiya təhsilə birbaşa zərbə vuran amillərdir və qarşısı alınmalıdır:** "Biz dördüncü sənaye inqilabı dövründə yaşayırıq, post-müharibə reallığından söhbət açırıq. Qalib dövlətə, qalib xalqa bu kimi neqativ fəaliyyətlər təbii ki, yaraşmır. Ölkə başçısı İlham Əliyevin də korrupsiyaya qarşı mübarizə tədbirləri davamlı və ardıcıldır. Aidiyyəti qurumlar da bununla bağlı sistemli fəaliyyət göstərirlər. Zənnimcə, rüşvət birinci növbədə təhsildə olmamalıdır. Ən şəffaf sahə təhsil olmalıdır. Çünki bütün sahələrin inkişafı təhsildən keçir. Təkcə ali təhsil ocaqlarında yox, ümumiyyətlə, bütün təhsil sektorunda bu kimi xoşagəlməz iddiaların, halların olması birmənalı olaraq qəbuledilməzdir. Mən deməzdim ki, rüşvət hallarında kütləvilik var. Amma təəssüf ki, bu kimi hallarla qarşılaşırıq. Ali təhsil məktəblərimizin də siması əvvəlki illərlə müqayisədə xeyli dəyişib. Lakin fonda yenə də bu cür qanunsuzluqların olması birbaşa təhsilin imicinə zərbə vurur".

**Çimnaz Şahlar**

# Turizm sahəsində gəlirlərimiz artmayıb

## Quru sərhədlərin açılması şərtdir




**"Artıq yeni turizm mövsümü başlayıb. 2019-cu ilə ölkəyə 3.2 milyon turist gəlmişdisə 2021-ci ildə pandemiya səbəbindən bu rəqəm 791,8 minədək azalmışdı". Bu barədə millət vəkili Vüqar Bayramov deyib. Deputat bildirib ki, bu ilin ilk aylarından etibarən ölkəmizə gələnlərin sayında artımın olmasına baxmayaraq, hələ də rəqəmlər pandemiyadan əvvəlki səviyyədən aşağıdır:**

"Turizm neftdən sonra Azərbaycana ən çox valyuta gətirən sektordur. Pandemiyadan öncə illik turizm gəlirləri 2.7 milyard dollara yaxın idi. Bu sektor həmçinin məşğulluğa da xüsusi töhfə verir. Artıq əksər ölkələrdə karantin qaydaları kəskin yumşaldılıb. Azərbaycanda da karantin qadağalarının əksəriyyəti aradan qaldırılıb. Bununla yanaşı, bu sektorun inkişafı baxımından quru sərhədlərinin mərhələli açılışı ölkəyə gələn turistlərin sayının kəskin artmasına səbəb ola bilər". Parlament üzvü qeyd edib ki, statistika da göstərir ki, Azərbaycana səfər edənlərin əksəriyyəti qonşu ölkələrdən gəlirlər: "Onlar eyni zamanda quru sərhədlərdən istifadəyə üstünlük verirdilər. Bu ilin 5 ayında da Azərbaycana gələn turistlərin 68.9 faizi quru sərhədlərimizin olduğu ölkələrin payına düşüb. Yəni Azərbaycana gələn hər 10 turistin 7-sinin vətəndaşlığı olduğu ölkə ilə quru sərhədlərimiz var. Bu baxımdan, quru sərhədlərin açılması ölkəyə daha çox turistin gəlməsinə səbəb olmaqla real sektora dəstək ola bilər".

**İsmayıl**

# Elektron qolbaq məhkuma bir xəbərdarlıqdır

## O düşünür ki, cinayət əməlini təkrarlasa, cəzası ağırlaşacaq

**Ədliyyə Nazirliyinin Bakı Şəhər Probasiya İdarəsi tərəfindən elektron qolbaq daşıyan yetkinlik yaşına çatmayan məhkumların sayı açıqlanıb. İdarənin qeydiyyatında olan 9 məhkuma elektron qolbaq vurulub. Ümumilikdə Bakı Şəhər Probasiya İdarəsində azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalar tətbiq edilmiş yetkinlik yaşına çatmayan 21 məhkum var.**



***Bu, məhkuma davranışlarını dəyişmək, cənayətdən kənar gəzmək üçün bir imkandır***

Bakı şəhəri üzrə 2812 nəfər azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəza çəkir. Bunu jurnalistlərə açıqlamasında Bakı Şəhər Probasiya İdarəsinin rəisi vəzifəsini icra edən, Baş ədliyyə müşaviri Namiq İsmayılov deyib. O bildirib ki, həmin şəxslərdən 1233 nəfər azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilərək elektron qolbaq vasitəsilə nəzarətdə saxlanılır. "Bundan başqa, 139 nəfər cərimə cəzasına məhkum edilib, 27 nəfər islah işlərinə cəlb olunub, 205 nəfər isə cəzadan şərti olaraq vaxtından tez azad edilənlərdir",- N.İsmayılov deyib.

Qeyd edək ki, Cəzaların İcrası Məcəlləsinə 2017-ci il 01 dekabr tarixində qəbul edilmiş dəyişiklik "Probasiya nəzarəti" ilə bağlıdır. Probasiya nəzarəti - azadlıqdan məhrum etmə ilə bağlı olmayan cəzalara məhkum edilmiş, şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya cəza çəkməsi təxirə salınmış məhkumların, habelə alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş şəxslərin üzərinə qanunla və məhkəmə qərarı ilə qoyulmuş vəzifələrin yerinə yetirilməsinə nəzarət edilməsinə, məhkumların islah edilməsi, sosial adaptasiya və reabilitasiyasına yönəlmiş kompleks sosial-hüquqi xarakterli tədbirlər sistemindən ibarətdir. Elektron qolbaq da probasiya nəzarətinə daxil olan elementlərdən biridir.

Bununla belə, hətta elektron qolbaq taxılmış məhkumların yenidən cinayət əməli törətməsi hallarına da rast gəlinir. Bu mənada elektron qolbaq nə dərəcədə effektlidir? Konstitusiya Araşdırmaları Fondunun prezidenti, hüquqşünas Əliməmməd Nuriyev "Şərq"ə açıqlamasında qeyd etdi ki, elektron qolbaq yaxşı alət hesab edilir:

- Məhkəmə-hüquq sistemində bu, qabaqcıl texnologiyadır, əlverişli, innovativ yanaşmadır. İstənilən halda elektron qolbağın tətbiqi məhkəmə qərarı ilə icra edilir. Elektron qolbaq azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalar tətbiq edilmiş məhkumların hərəkətlərini, davranışlarını izləmək imkanı verir. Probasiya idarəsi əməkdaşları elektron qolbaq taxılmış məhkumlara çevik nəzarət edə bilir. Elektron qolbaq, məsələn, şərti azadlığa buraxılmış, yaxud yaşayış yerini tərk etməsi qadağan olunmuş məhkumun bununla bağlı vaxtaşırı qeydiyyatdan keçməsi zərurətini aradan qaldırır, məhkum əlavə xərclərdən, süründürməçilikdən, vaxt itkisindən azad olur. Elektron qolbaq məhkuma islah olunmaq imkanı verməklə yanaşı, davranışlarına da müsbət təsir edə bilər. Məhkum düşünməlidir ki, elektron qolbaq bir xəbərdarlıqdır, cinayət əməli yenidən təkrarlanarsa, cəzası ağırlaşacaq. Bu, məhkuma davranışlarını dəyişmək, cənayətdən kənar gəzmək üçün bir imkandır. Doğrudur, elektron qolbaq məhkumun - insanın hərəkət azadlığını məhdudlaşdırır, hətta bu məhdudlaşdırıcı hala görə elektron qolbağı insan haqlarına qarşı alət hesab edənlər də var. Lakin hesab edirəm ki, elektron qolbağın çəkindirmə dərəcəsi hərəkət məhdudiyyəti ilə müqayisədə daha yüksəkdir və məhkumun davranışlarını dəyişməsinə, islah olunmasına kömək edə bilən alətdir. Cəmiyyət üçün də bu faydalıdır. Ətrafdakı insanlar da elektron qolbaqlı şəxs barədə məlumatlı olmaqla özlərini müdafiə edə bilərlər. Hesab edirəm ki, elektron qolbağa şəxsin cəmiyyətdən seçilməsi, təcrid olunması aləti kimi deyil, əksinə, cəmiyyətə inteqrasiyası üçün imkan yaradan alət kimi baxmalıyıq.

**Yetkinlik yaşına çatmayan məhkumlara gəlincə, Ə.Nuriyev bu cür şəxslərin ölkə üzrə 30-35 nəfər olduğunu dedi:**

- Azərbaycan Cinayət Məcəlləsində cinayət məsuliyyəti 16 yaşdan yuxarı şəxslərə tətbiq edilir. Bəzi cinayətlər var ki, 14 yaşdan tətbiq edilir. Amma hətta ən ağır cinayət törətmiş şəxs əgər yetkinlik yaşına çatmayıbsa, ona nə ömürlük cəza tətbiq edilir, nə də uzunmüddətli azadlıqdan məhrumetmə cəzası. Bu, ölkəmizin yetkinlik yaşına çatmayanlara münasibətdə humanizm prinsiplərini əsas götürməsiylə bağlıdır. Elektron qolbaq təcrübəsi tətbiq edilməyə başlanandan sonra hər hansı cinayət törətmiş yetkinlik yaşına çatmayan şəxslərə də bu alət taxılır. Hesab edilir ki, elektron qolbaq cəza siyasətinin daha uğurlu icrasına kömək edir.

**Ə.Nuriyev qeyd etdi ki, elektron qolbaqlı şəxslərin bəzən təkrar cinayət əməli törətməsi halları baş verir:**

- Elektron qolbağı olan məhkum onun üçün təyin edilmiş ərazidən kənara çıxdıqda Probasiya İdarəsi əməkdaşları tərəfindən qeydə alınır. Elektron qolbaq sayəsində məhkumun yaşayış yerini tərk etdiyi bilinir. Bu, idarə əməkdaşlarının onu izləməsinə imkan verir. Amma məhkum hansısa cinayət əməlini onun üçün təyin edilmiş ərazi daxilində törədə bilər. Elektron qolbaq bu zaman gücsüzdür. Məsələn, narkotik maddə satışı il məşğul olanlar bu əməli yaşadıqları ünvan ətrafında, yaşadıqları ərazi daxilində edirsə, elektron qolbağın köməyi olmayacaq. Bununla belə, yenə də elektron qolbaq müasir ədliyyə sistemində hələ ki, müsbət alət hesab edilir.

**Məlahət Rzayeva**

# Hər mənzildə od söndürən balon olmalıdır

## Yay aylarında baş verən yanğınların əsas səbəblərindən biri elektrik naqillərinin qızmasıdır



***"Yay aylarında yanğın təhlükəsini önləmək məqsədilə yaşıllıqlara, park ərazilərinə, istifadəsiz yerlərə nəzarət artırılmalıdır. Ərazidəki quru otlar təmizlənməlidir, çünki quru otlar tez alışır və yanğının əhatəsi genişlənir"***

**Havaların isti keçdiyi günlərdə yanğın barədə məlumatlar narahatlıq doğurur. Bu günlərdə paytaxtda bir neçə belə hadisə baş verib. Bakı şəhəri, Binəqədi rayonu, 6-cı mikrorayon, R.Behbudov küçəsində yerləşən ”Dendroloji park”ın ərazisində baş vermiş yanğın nəticəsində 500kv.m. sahədə quru ot yanıb. Fövqəladə Hallar Nazirliyinin məlumatına görə, Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələrinin səyi ilə yanğın söndürülərək alovun ətraf ərazilərə yayılmasına imkan verilməyib.**

Faktla əlaqədar FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin əməkdaşları tərəfindən operativ olaraq hadisənin başvermə səbəbləri və mümkün təqsirkar şəxs və ya şəxslərin müəyyən edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilib. Araşdırmalar nəticəsində yanğını qəsdən törətməkdə şübhəli bilinən Səmədov Emil Nazim oğlu müəyyən edilib. E.Səmədov yanğını qəsdən törətdiyini etiraf edib. Qanunvericiliklə nəzərdə tutulan tədbirlərin görülməsi üçün Səmədov Emil Nazim oğlunun barəsində toplanmış materiallar Daxili İşlər Nazirliyinin Binəqədi Rayon Polis İdarəsinə göndərilib.

**İsti havalarda yanğın təhlükəsinin artdığı nəzərə alınaraq qabaqlayıcı tədbirlərin həyata keçirilməsi zəruridir. Yanğın təhlükəsizliyi dövlət orqanları, idarə və müəssisələrlə yanaşı, əhalinin də diqqətində olmalıdır. Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev ”Şərq”ə açıqlamasında qeyd etdi ki, yanğın təhlükəsizliyi qaydalarına riayət etmək vacibdir:**

- Bütün dövlət qurumları yanğın təhlükəsizliyinə məsuliyyət daşıyır. Bədbəxt hadisələr baş verməsin deyə, yanğından mühafizə və təhlükəsizlik qaydalarına mütləq əməl edilməlidir. Əgər bir müəssisədə işçilərin sayı 15 nəfərdən artıqdırsa, həmin müəssisədə könüllü yanğınsöndürənlər dəstəsi formalaşmalıdır. Bu əməkdaşlara kurs keçilməlidir, onlar yanğın zamanı ilkin tədbirlər haqqında məlumatlandırılmalıdır. Təsəvvür edək ki, əgər bir müəssisədə yanğın hadisəsi baş veribsə və əməkdaşlar Dövlət Yanğın Nəzarəti Xidməti gələnədək yanğının yayılmasının qarşısını alacaqsa, yanğınsöndürənlərə lazımi məlumatları vaxtında çatdıracaqsa, həm yanğının qarşısı qısa zamanda alınacaq, həm də xəsarət və itkilər də dəfələrlə az olacaq. Yanğın təhlükəsinə qarşı qabaqlayıcı tədbirlərin görülməsi əsas şərtlərdən biridir. Hər bir idarə və müəssisədə yanğından mühafizə xidməti, yanğına qarşı lazımi avadanlıqlar, su nasosu, yanğınsöndürən balonlar olmalıdır. Bütün alətlər işlək vəziyyətdə saxlanmalıdır. Əməkdaşlar təxliyə çıxışları barədə məlumatlı olmalıdır. Bütün bunlar yanğının qarşısının qısa zamanda alınmasına və əməkdaşların vaxtında təxliyə edilməsinə, ziyanın minimum olmasına şərait yaradır. Yanğın zamanı ən vacib əşyalar ilk növbədə yanğın sahəsindən çıxarılmalıdır. Ümumiyyətlə, hər bir idarə və müəssisədə yanğından mühafizə sistemi qurulmalıdır. Biz tikinti materialları bazarında, alış-veriş mərkəzlərində baş verən yanğınların hansı fəsadlara səbəb olduğunu gördük. Əgər həmin məkanlarda yanğından mühafizə sistemi olsaydı, təhlükəsizlik qaydalarına riayət edilmiş olsaydı, zərər o qədər böyük olmayacaqdı.

**E.Nurəliyev qeyd etdi ki, yanğınların böyük əksəriyyəti elektrik naqillərinin nasazlığı ucbatından baş verir:**

- Müəssisələrdə hər il, yaşayış binalarında, mənzillərdə isə heç olmasa 2 ildən bir elektrik naqilləri yoxlanmalıdır. Elektrik naqilləri ən çox yüklənməyə məruz qalır. Bir mənzildə eyni vaxtda baxırsan ki, paltaryuyan maşın da işləyir, tozsoran da, ”Tefal” çaydan da elektrik cərəyanına qoşulmuş vəziyyətdədir. Havalar istidirsə, kondisioner də işləyir. Xüsusilə söhbət yay aylarından gedirsə, bu, real təhlükə deməkdir. Çünki isti havalarda elektrik naqilləri adi vaxtdan 2-3 qat artıq qızır. Yay aylarında baş verən yağınların əsas səbəblərindən biri elektrik naqillərinin qızmasıdır. Naqillər isinir, qızır və nəhayət, alışma baş verir. Elektrik naqillərinin keyfiyyətli olub-olmadığı mütləq yoxlanmalıdır. Həm də elektrik naqilləri həddindən artıq yüklənməməlidir. Mənzildən çıxarkən elektrik avadanlıqlarını cərəyandan mütləq ayırmaq lazımdı. Ümumiyyətlə, hər bir mənzildə od söndürən balon olmalıdır. Avropada, Pribaltika ölkələrində hər mənzildə belə balonlar var. 6 kiloqramlıq balon 6-8 kvadrat metr ərazidə yanğını söndürə bilir. Deməli, bir mənzildə yanğın baş versə, qonşular həmin od söndürən balonlarla yanğının qarşısını ala bilir. Yanğınsöndürənlər gələnədək özləri təhlükəni aradan qaldıra bilirlər. Bizdə isə bir hadisə baş verdikdə hamı dayanıb yanğınsöndürən maşının gəlməsini gözləyir. Yay aylarında yanğın təhlükəsini önləmək məqsədilə yaşıllıqlara, park ərazilərinə, istifadəsiz yerlərə nəzarət artırılmalıdır. Ərazidəki quru otlar təmizlənməlidir, çünki quru otlar tez alışır və yanğının əhatəsi genişlənir. Zibilliklər vaxtlı-vaxtında təmizlənməli, zibillər tez-tez daşınmalıdır. Zibillikdəki adi şüşə parçası da üzərinə günəş şüasının düşməsiylə böyük yanğına səbəb ola bilər.

**Qəsdən yanğın törədilməsi hadisəsinə gəlincə, E.Nurəliyev hadisəyə hüquqi qiymət verildikdən sonra mahiyyətin nədən ibarət olduğunun anlaşılacağını dedi:**

- İndi biz mülahizə irəli sürə bilərik. Bəlkə o şəxsin psixi problemləri var, bəlkə kiminləsə şəxsi-qərəzliyi?! Ola bilər kiminləsə aralarında mübahisə yaransın və acığa düşüb ərazini yandırsın. Və yaxud ərazidə yanğın siqaret kötüyündən, bir qığılcımdan da yarana bilər. Yəqin ki, bu hadisə araşdırılacaq və yanğının əsl səbəbi bilinəcək. Bütün hallarda yay aylarında yanğın təhlükəsi daha artıqdır və müvafiq qurumlar bunu nəzərə alaraq qabaqlayıcı tədbirlər həyata keçirməlidir.

**Məlahət Rzayeva**




# Bu yay rouminqdə Azercell-in tarifləri ilə ünsiyyətdə sərbəst ol!

Lider mobil operator Sərbəst 50 və Sərbəst 75 tarif paketlərinin fakturalı xətt istifadəçilərinə rouminq üçün internet trafik hədiyyə edir!

**Azercell mobil telekom bazarında bir çox üstünlükləri ilə seçilən Sərbəst paketlərinin istifadəçilərinə indi daha çox imkanlar təqdim edir. Artıq Sərbəst-i seçən abunəçilər sərfəli və rahat ünsiyyətdən yalnız Azərbaycanda deyil, ölkə hüdudlarından kənarda da yararlana biləcəklər. İyun ayının 20-dən sentyabr ayının 15-dək Sərbəst 50 və Sərbəst 75-in fakturalı xətt abunəçiləri ölkədaxili dəqiqə və internetlə yanaşı, rouminq üçün internet trafik də əldə edəcəklər.**

Belə ki, yay ayları boyunca Sərbəst 50 tarif paketi çərçivəsində fakturalı xətt istifadəçilərinə ayda 50 AZN-ə 25GB internet, 2500 ölkədaxili dəqiqə, Facebook Messenger və WhatsApp tətbiqlərində pulsuz yazışma imkanından əlavə, həmçinin 1 GB həcmində rouminq internet paketi də veriləcək.Sərbəst 75 tarif paketinin abunəçiləri isə ayda 75 AZN ödəməklə 60 GB internet, 4000 ölkədaxili dəqiqə, FacebookMessenger və WhatsApp tətbiqlərində pulsuz yazışma imkanı ilə yanaşı, 2GB həcmində rouminq internet paketi də əldə edəcəklər. (ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/plans-and-services/mobile-tariffs/postpaid.html)

Sərbəst tarifləri çərçivəsində təqdim edilən əlavə internet trafik Azercell-in rouminq internet paketləri qüvvədə olan bütün ölkələrdə etibarlıdır. Odur ki, Sərbəst abunəçiləri bonuslarından dünyanın ən çox ziyarət edilən 62 ölkəsində fəaliyyət göstərən 105-dən çox operatorun şəbəkəsində yararlana biləcəklər.

Xatırladaq ki, Türkiyə, Rusiya, Avstriya, Belarus, Gürcüstan, İsrail, Qazaxıstan, Ukrayna və Çin kimi populyar istiqamətlərdə rouminq internet paketləri bütün şəbəkələrdə etibarlı olduğundan, Azercell abunəçiləri prioritet operatoru seçmək zərurəti olmadan istənilən şəbəkədə internet xidmətindən istifadə edə bilərlər. Lider mobil operator xaricə səfər edən abunəçilərindən www.azercell.com rəsmi internet səhifəsindən rouminq zamanı internetdən istifadə qaydaları ilə (ətraflı məlumat üçün: https://www.azercell.com/az/personal/plans-and-services/roaming/roaming-data-packages.html)tanış olmağı və ölkə hüdudlarından kənarda nömrəyə göndərilən ismarışları diqqət mərkəzində saxlamağı xahiş edir!

Bu yay rabitə xərclərinizə Sərbəst tarif paketləri ilə qənaət edin!

**Elan**

25 iyun 2010-cu il tarixdə Qambayev Ənvər İbrahim oğluna verilmiş MN 0037920 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.



# Dünyada ressesiya təhlükəsi artacaq

## Ekspert hesab edir ki, iqtisadi böhranın qarşısını tezliklə almaq mümkün olmayacaq

**Dünyanı olduqca çətin yay gözləyir. Bu barədə analitik Viktor Keton ”Business Insider”ə yazdığı məqaləsində proqnoz verib. Buna səbəb kimi Avropa İttifaqının (Aİ) Rusiyadan neftin tədarükünə embarqo qoymasını göstərib.**

V.Keton bu sanksiyaların birbaşa təsiri ilə yayın olduqca çətin və inanılmaz gərgin keçəcəyini qeyd edib. Həmçinin yanacağın ucuzlaşması üçün yeganə ümidin isə kreditlər üzrə yüksək faiz dərəcələri ola biləcəyini diqqətə çatdırıb.

**Analitikin mülahizəsi ilə bağlı fikirlərini ”Şərq”ə bölüşən iqtisadçı Natiq Cəfərlinin sözlərinə görə, dünyanın yaydakı böhrandan necə çıxacağı barədə sualın net cavabını tapana ”Nobel” mükafatı düşür:**

”Belə məsələlərə konkret fikir bildirmək mümkün deyil. Dünyadakı böhrandan çıxmaq üçün bir çox ardıcıl tədbirlərə ehtiyac var. Bunlar dünyadakı inflyasiyanın aşağı düşməsi ilə əlaqəli olmalıdır. Dünyada qiymət artımı dayanmalı, enerji daşıyıcılarının qiyməti azalmalıdır. Eyni zamanda ressesiya təhlükəsi aradan qaldırılmalıdır. Bunun üçün dünyada geosiyasi sabitlik olmalıdır. Rusiyanın izolyasiyası mövcuddur. Digər bir tərəfdən enerji daşıyıcılarının qiyməti qalxır. Rusiya-Ukrayna müharibəsi logistikaya və kənd təsərrüfatı məhsulları qiymətlərinin artırılmasına səbəb olub. Bu qəbildən bir çox kompleks məsələlər həllini tapmasa, dünya iqtisadiyyatının hazırkı vəziyyəti təəssüf ki, hələ davam edəcək. Üstəlik, ressesiya qorxusu da var. Amerikada, həmçinin Avropada iqtisadiyyatın il sonuna, hətta növbəti ilin ortalarına yaxın daralmasını görə bilərik. Əgər geosiyasi risklər azalmasa və dünyada inflyasiyanın qarşısını almaq mümkün olmasa, ressesiya təhlükəsi getdikcə artacaq”.

**Sücayət Mehti**

# Vaxtın dəyişdirilməsinə heç bir ehtiyac yoxdur

## Elçin Əfəndi: “Dərslərin sentyabrın 15-də başlaması normaldır”

**Millət vəkili Fazil Mustafa məktəblərin 15 sentyabrda başlamasına narazılıq ifadə edib. Deputat qeyd edib ki, kim nə deyir desin, müstəqillik dövrümüzdə alınan ən yersiz, lazımsız, faydasız, zərərli qərarlardan biri və bəlkə də birincisi orta və ali məktəblərdə dərslərin sentyabrın 15-dən başlaması barədə qərardır:**



”Fikrimcə, bu qərar təhsil sistemimizdə məqsədli şəkildə dolaşıqlıq yaratmaq üçün verilib. Məhz bu qərara görə, Azərbaycanda bütün tədris planı allaq-bullaq olub. Yalan deyirlər, mayın 25-dən sonra heç bir məktəbdə normal dərs keçirilmir, bütün təhsil sistemimiz bu mənasız qərarın girovuna çevrilib. Heç bir ciddi əsaslandırması da yoxdur. Müəllimlər də iyun ayının 15-dək olan mənasız uzatmalardan beziblər. Müzakirəyə çıxarın görək neçə faiz ağıllı tapılacaq ki, dərslərin 15 gün gec başlamasını dəstəkləsin? Mən tam əminliklə söyləyirəm, dərsləri sentyabrın 1-dən başlamaq qərarı verilsin, tədrisin keyfiyyətinə dərhal öz təsirini göstərəcək. Tədrisdə itirilən bir gün belə önəmlidir. Sentyabrın 1-i dərslər başlamalıdır!”.

**Təklifə münasibət bildirən təhsil eksperti Elçin Əfəndi ”Şərq”ə söyləyib ki, dərslərin gec və ya tez başlaması təhsildəki keyfiyyətin göstəricilərindən deyil:** ”Əvvəlki dövrlərdə dərslər sentyabrın 1-də başlayır, may ayının 25-i yekunlaşırdı. Lakin Azərbaycan 2004-cü ildə Avropa təhsil sisteminə inteqrasiya etdikdən sonra dərslərin sentyabrın 15-i başlanılması və iyun ayının 14-nə qədər aparılması əsas götürüldü. Eyni zamanda dünyada qlobal istiləşmənin baş verməsi və sentyabrın 15-nə qədər kəskin istilərin olması bu hala təsir edən amillərdən biridir. Bildiyimiz kimi Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən keçirilən imtahanlar kurikulum əsasında götürüldüyü üçün vaxt alır. Dərslər sentyabrın əvvəlinə keçirilərsə, o zaman gərək imtahanlar yanvar ayına təyin olunsun. Ümumilikdə bunların hər biri bir-birinə zəncirvari bağlıdır. Hazırda təhsillə bağlı heç bir vaxt dəyişikliyi etmək zərurəti yoxdur”.

**Nihat Müzəffər**

# Şəkər tozunun əksəriyyəti Ukrayna və Rusiyadan gətirilir

## Ona görə qiymətlərdə böyük artım müşahidə olunur

***“Yerli istehsalı artırmaq lazımdır. İmişli Şəkər Zavodunun potensialından daha yaxşı istifadə etmək olar”***

**Azərbaycanda son vaxtlar şəkər tozunun qiymətində artım hiss olunur.**

Keçən ilin müvafiq dövrü ilə müqayisədə sözügedən məhsul iki dəfəyə yaxın bahalaşıb. Belə ki, ötən yay mağazalarda kiloqramı 80-90 qəpiyə satılan şəkər tozu hazırda 1 manat 40 qəpikdir. Həmçinin topdansatış qiymətində də son bir həftə ərzində artım var. Məsələn, indiyə qədər 50 kiloqramlıq şəkər tozu kisəsinin qiyməti 67 manata satılırdısa, hazırda 75 manata təklif olunur.



*Bəs şəkər tozunun bahalaşması nə ilə əlaqədardır?*

**İqtisadçı Natiq Cəfərli ”Şərq”ə bunun səbəblərini izah edib. O bildirib ki, Azərbaycanda şəkər tozunun böyük əksəriyyəti xaricdən gətirilir, burada qablaşdırılıb bazara çıxarılır:** ”Yəni bizim yerli istehsalımız yerli tələbatı ödəmək qabiliyyətinə malik deyil. Şəkər tozu əsasən Ukraynadan gətirilirdi. Son zamanlar müharibənin başlaması, logistikanın tamamilə dayandırılması oradan gələn məhsulun miqdarını minimuma endirib. Demək olar ki, dayandırılıb. Rusiyadan da şəkər tozu alınırdı. Lakin orada da müxtəlif problemlər yaşanır”.

Bahalaşmanın qarşısını almaq üçün atılmalı olan addımları sadalayan iqtisadçı diqqətə çatdırıb ki, yerli istehsal gücləndirilməlidir: ”Şəkər tozunun qiymətində artımın olması xaricdən asılılığımız və yerli istehsalımızın zəif olması ilə bağlıdır. Düşünürəm ki, əsas problem yerli istehsalın artırılması ilə bağlı hökumətin qarşıya qoyduğu planların yerinə yetirilməməsi ola bilər. Yerli istehsalı artırmaq lazımdır. İmişli Şəkər Zavodunun potensialından daha yaxşı istifadə etmək olar. Nə qədər ki, biz xaricdən asılıyıq, qiymətlərin artımı davam edəcək”.

**Çimnaz Şahlar**

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet “Şərq”in kompyuter mərkəzində yığılır, səhifələnir və “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, “Azərbaycan” nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: “Kapitalbank”ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1768



## Meymunların qaçırdığı körpə ölüb

Həkimlər onun həyatını xilas edə bilməyiblər

**Tanzaniyada 1 aylıq körpə meymunların qurbanı olub. "NTV.com.tr" bu barədə ölkənin yerli xəbər agentliklərinə istinadən məlumat verib.**

Xəbərdə bildirilir ki, Tanzaniyanın qərbindəki Kigoma bölgəsində yaşayan ailənin 1 aylıq körpəsini meymunlar qaçırıb. Tanzaniyada meymunların çoxluq təşkil etdiyi milli qoruqlar ölkənin 30 faizini təşkil edir. Kigoma bölgəsi isə Tanzaniyanın "Gombe" Milli Qoruq ərazisi yaxınlığında yerləşir. Qoruqda meymun sürüləri bəslənir. Meymunlar körpəni birbaşa anasının qucağından qoparıb. Meymunların evə basqını sırasında ana körpəsini əmizdirirmiş. Meymunlar çığırışaraq evə daxil olub, körpəni ananın qucağından alıb qaçıblar. Səsə gələn kənd camaatı meymunların ardınca qaçıb. Meymunlar kənd camaatına da zərər verib. Lakin kəndlilər körpəni meymunların əlindən ala bilib. Körpə təcili xəstəxanaya aparılıb, lakin həkimlər onun həyatını xilas edə bilməyiblər.

**Məlahət**

## Atı rəngləyib zebr etdilər

Göygöl sakini diqqət çəkmək üçün maraqlı üsula əl atıb



**Atını turistlərə icarəyə verən Göygöl sakini Vüqar Abbasov diqqət çəkmək üçün maraqlı üsula əl atıb. O, ağ atını rəngləyib.**

Xəzər TV xəbər verir ki, Vüqar Abbasovun fəaliyyət göstərdiyi istirahət mərkəzində icarəyə verilən at çoxdur. Amma yerli sakin və turistlərin diqqətini rəngləndikdən sonra zebra bənzəyən atı cəlb edib.

Azərbaycan Dövlət Aqrar Universitetinin Baytarlıq fakültəsinin müəllimi Aqil Mustafayev isə başqa fikirdədir. Onun sözlərinə görə, heyvanın fərqli rəngdə boyamaq sağlamlığı üçün risk yarada bilər.

Aqil Mustafayev vurğulayıb ki, belə bir ideyanı reallaşdırmazdan əvvəl mütləq mütəxəssislərlə məsləhətləşmək lazımdır.







# Cəzası edam

## Nəzarətçiləri öldürüb qaçan digər məhbusa isə ömürlük həbs cəzası verilib

**Beş il əvvəl həbsxananın avtobusundan qaçarkən iki nəzarətçini öldürən məhbusa ölüm cəzası verilib. Vəkili "əqli qüsurlu" olduğunu iddia edən məhbusun cinayət stayı kifayət qədər qabarıqdır.**

"Şərq" Milliyyet-ə istinadən xəbər verir ki, hadisə ABŞ-da baş verib. Avtobusda olan iki mühafizəçi - Çavuş Kristofer Monika və seryant Kertis Billu hadisə yerində ölüb.

Polis orqanlarının araşdırması nəticəsində məlum olub ki, ən dəhşətli səhv avtobusda məhbus kupesinin qapısının bağlanmaması olub. Monika və Billue də güllələkeçirməz yilet geyinməyiblər.

İki məhbus özlərini qandaldan azad edib, daha sonra məhbusları gözətçilərdən ayıran qıfılı açmaq üçün özləri hazırladıqları alətdən istifadə ediblər. Avtobusun təhlükəsizlik kameraları qaçış anını qeydə alıb, avtobusdakı məhbuslar isə qətlin şahidi olublar.

Magistral yolla hərəkət edən şəxs avtobusun yolun ortasında dayandığını görüb yolu keçib. Lakin o, avtomobilini saxlayanda məhbuslar tərəfindən silah gücü ilə qarət edilib. Rowe və Dubose - qaçan məhbuslar, təxminən 40 mil şimalda Madison şəhərinə gediblər. Qaçan iki məhkum Madisonda bir evi də qarət edib və ağ "Ford" markalı yük maşını oğurlayıb. İki gün sonra Tennessi ştatının Şelbivil şəhərində bir evə yerləşiblər. Daha sonra məhbuslar ev sahibinin ciplərini qaçırıb. Onları təqib edən təhlükəsizlik qüvvələrinə də atəş açıblar.

İki məhbus cipinin qəzaya uğramasından sonra zəbt etmək üzrə olduqları torpaq sahəsinin sahibinə təslim olmaq məcburiyyətində qalaraq, qarşılarındakı hasardan tullanmaq məcburiyyətində qalanda təqib başa çatıb.

Beş il əvvəl baş vermiş bu dəhşətli cinayətə görə, məhbuslardan biri ölüm cəzasına məhkum edilib. Münsiflər heyəti təqsirli bildikləri məhkuma ölüm hökmü çıxarıb.

Məhbusun vəkili açılış ifadəsində günahkar olduğunu etiraf edib, lakin onun psixi cəhətdən qeyri-sabit olduğunu söyləyib. Bu, onun ölüm cəzasını yararsız hala sala bilərdi. Bununla belə, prokurorlar məhbusun ağıllı və planlı bir qatil olduğunu deyərək, müdafiə arqumentlərini rədd ediblər. İkinci məhbus isə ömürlük həbs cəzasına məhkum edilib.

**Çimnaz Şahlar**






## İkinci Dünya müharibəsində batan gəmi üzə çıxıb



**İtaliyada Alp dağlarından Adriatik dənizinə axan Po çayı son 70 ilin ən böyük quraqlığı ilə üzləşib və nəticədə İkinci Dünya müharibəsində çayda batan gəmi üzə çıxıb.**

**Azərtac xəbər verir ki, İkinci Dünya müharibəsində odun daşımaq üçü istifadə olunan və 1943-cü ildə batan "Zibello" adlı gəmi Po çayında suyun səviyyəsi aşağı düşməsi ilə üzə çıxıb.**

***Qeyd edək ki, İtaliyadakı quraqlıq narahatlığa səbəb olub. Ölkənin şimalında 110 gündən çoxdur ki, yağış yağmayıb. Bu il qar yağışı 70 faiz azalıb. Nəticədə isə ölkənin ən böyük çayı olan Poda suyun səviyyəsi 70 faizədək azalıb.***

## Atasından imtina etmək istəyir

İlon Maskın oğlu cinsiyyətini dəyişir



**"SpaceX" və "Tesla" şirkətlərinin təsisçisi İlon Maskın oğlu Ksavyer cinsiyyətini dəyişmək və atasının soyadından imtina etmək üçün məhkəməyə müraciət edib. 18 yaşlı Ksavyer atasından imtina etmək istəyir. "Mən artıq onunla yaşamıram, bioloji atamla əlaqəli olmaq istəmirəm" O, adını Vivian Cenna Uilson etmək istəyir. Ksavyer Maskın adını dəyişdirdikdən sonra atasından maliyyə yardımı alıb-almayacağı açıqlanmayıb.**

***Qeyd edək ki, oğlan İlon Mask 2000-ci ildə kanadalı yazıçı Castin Uilson ilə rəsmi nikahından doğuıub.***

## Çoxuşaqlı xadimə Fransa parlamentinə seçildi



**Qaradərili həmkarlar ittifaqı fəali, eyni zamanda beş uşaq anası olan Raşel Keke Fransa parlamentində - Fransa Milli Assambleyasında da yer ala bilən ilk xadimə olub.**

**Oxu.az xəbər verir ki, parlament seçkisinin ikinci turunun nəticələrinə görə, İl-de-Frans mərkəz bölgəsində solçu "Yeni Xalq Ekoloji və Sosial Birliyi" partiyasını təmsil edən Kot-d-İvuardan olan 47 yaşlı Keke hakim "İrəli!" partiyasından namizədliyini irəli sürən keçmiş idman naziri Roksana Marasinyanuyu geridə qoya bilib. Bildirilir ki, çoxuşaqlı qaradərili xadimə 2019-2021-ci illərdə Parisdəki "Ibis Batignolles" hotelində işçilərin maaşlarının artırılması və iş şəraitinin yaxşılaşdırılması tələbi ilə keçirilən tətillərdə iştirak edərkən seçicilər arasında populyarlıq qazanıb.**



## Maraqlı araşdırma aparılıb

10 saniyə tək ayaq üstə dayana bilməyənlər vaxtından əvvəl ölə bilər

**Tədqiqatlar göstərir ki, 10 saniyə ərzində bir ayağı üzərində tarazlığı saxlaya bilməyən orta yaşlı və yaşlı insanların 10 il ərzində ölmə ehtimalı bunu bacaranlara nisbətən təxminən iki dəfə çoxdur. Bir insanın tarazlığını nə qədər yaxşı saxlaya bilməsi, sağlamlığı haqqında məlumat verə bilir. Məsələn, əvvəlki tədqiqatlar göstərdi ki, bir ayağın üzərində tarazlığı saxlaya bilməmək daha çox insult riski yaradır.**

İndi Böyük Britaniya, ABŞ, Avstraliya, Finlandiya və Braziliyadan olan beynəlxalq ekspertlər qrupu tarazlıq və ölüm nisbəti arasındakı əlaqəni araşdıran ilk 12 illik tədqiqatı tamamlayıb.

Tədqiqat müşahidə xarakterli olsa da və səbəbi müəyyən edilə bilməsə də, onun nəticələri təəccüblüdür.

Həyatın ortalarında və sonlarında insanların 10 saniyə bir ayaq üzərində dayana bilməməsi, növbəti 10 ildə hər hansı bir səbəbdən ölüm riskinin iki dəfə artması deməkdir.

Tədqiqat üçün 2008-2020-ci illər arasında 51-75 yaş arası, sabit yerişi olan cəmi 1702 insan izlənib.

Əvvəlcə iştirakçılardan heç bir əlavə dəstək olmadan 10 saniyə tək ayaq üstə durmaları istənilib.

İştirakçıların 21 faizi testdən keçə bilməyib. Sonrakı onillikdə 123 nəfər müxtəlif səbəblərdən dünyasını dəyişib. Yaş, cins və əsas şərtlər nəzərə alındıqdan sonra 10 saniyə ərzində bir ayaq üzərində dayaqsız dayana bilməmək hər hansı səbəbdən ölüm riskini 84 faiz artırıb.

Tədqiqatçıların sözlərinə görə, tədqiqatın məhdudiyyətləri var, o cümlədən iştirakçıların hamısı ağdərili braziliyalı idi, bu o deməkdir ki, tapıntılar digər etnik və millətlərə daha geniş tətbiq edilə bilməz.

Yenə də tədqiqatçılar belə nəticəyə gəliblər ki, 10 saniyəlik balans testi "xəstələr və səhiyyə işçiləri üçün statik tarazlıq haqqında tez və obyektiv rəy verir" və "orta yaşlı və yaşlı kişi və qadınlarda ölüm riski ilə bağlı faydalı məlumatlar ötürür".

**Turan**

## "Google"un yaradıcısı boşanır

Sergey 3 illik evliliyinin ardından artıq məhkəməyə müraciət edib




**"Google" kompaniyasının həmtəsisçisi, milyarder Sergey Brin ikinci həyat yoldaşı Nikol Şanaxandan boşanır.**

Axşam.az xəbər verir ki, Sergey 3 illik evliliyinin ardından artıq məhkəməyə müraciət edib. O, səbəb kimi fikir ayrılığını irəli sürüb.

Onlar artıq bir neçə aydır ki, birlikdə yaşamırlar. Cütlüyün toydan əvvəl nikah müqaviləsi bağladığı ehtimal edilir.

Qeyd edək ki, Brin 2017-ci ildə Nikolla görüşməyə başlayıb və bir ildən sonra onların qızı dünyaya gəlib. İkili 2019-cu ildə nikah bağlayıb.

Biznesmen daha əvvəl Enn Vodcitski ilə evli olub. Onlar 2015-ci ildə boşanıblar. Onu da qeyd edək ki, Sergey "Forbes" jurnalına görə dünyanın ən zəngin 10 adamı sırasına daxildir. Onun sərvəti təxminən 90 milyard dollar qiymətləndirilir.

## Prezident özünü kənd təsərrüfatı naziri təyin etdi



**Filippinin yeni seçilən Prezidenti Ferdinand Markos qiymətlərin artması fonunda iyunun 21-də özünü həm də ölkənin kənd təsərrüfatı naziri təyin edib.**

Bunu F.Markos iyunun 20-də, həmin ayın 30-na təyin edilən inauqurasiya mərasimi ərəfəsində bildirib.

Filippinin yeni prezidenti bildirib ki, ölkə daxilində qiymətlər xarici amillərlə əlaqədar, o cümlədən Ukraynada baş verənlər nəticəsində qlobal tədarük zəncirində yaranan problemlərlə bağlı artmaqda davam edir.

Problemin həllinin vacibliyini qeyd edən F.Markos, bunun üçün ilk növbədə ərzaq məhsullarının istehsalının artırılmasının zəruriliyini bildirib.

*Qeyd edək ki, Filippin prezidenti çox az hallarda özünü həm də kənd təsərrüfatı naziri təyin edir. Seçkiöncəsi kampaniya zamanı F.Markos düyünün qiymətini azı iki dəfə azaldacağını vəd etmişdi.*

## Əfqan qadınları ninza sirlərinə yiyələnir

Onların məqsədi vətənlərini dünyada tanıtmaqdır





**Əfqanıstandakı müharibədən İran ərazisinə qaçmış əfqan qadınlar vətənlərinə xidmət etmək üçün ninza sirlərinə yiyələnməyi qarşılarına məqsəd qoyub.**

Əfqan qadınlar Uzaq Şərq idman növlərini və döyüş üsullarını öyrənməyə can atır, beynəlxalq yarışlarda iştirak etməyi arzulayırlar. "Şərq" "NTV.com.tr"yə istinadən bildirir ki, İranın paytaxtı Tehranda Uzaq Şərq İdman növləri üzrə təlim keçən əfqan Fəriba Nimeti müdafiə sənətiylə maraqlanan əfqan qadınlardan ibarət "Kabura Vəhdət Komandası"na ninza idman növünün sirlərini öyrədir. Bununla, əfqan qadınlar dünyadakı həmcinslərindən heç nəylə fərqlənmədiklərini sübut etməyə çalışır. Nimeti 10 ildir bu sənətlə məşğuldur. Bundan əvvəl əfqan qaçqın qadınlarından ibarət həndbol və voleybol komandası da formalaşdırıb Əfqanıstana göndərib. "Kabura Vəhdət Komandası"nda hər yaş qrupuna yer verilir. Burada 5 yaşlı uşaq da var, 22 yaşlı gənc analar, qızlar da. Onlara təkcə ninza sənəti yox, tayekvando, Kung-fu, gimnastika, nin-jut-su kimi idman növləri də öyrədilir. Məqsədləri komandanı dünyaya tanıtmaqdır. Nimeti verdiyi açıqlamada deyib ki, bu vaxta qədər qaçqın əfqan qadınları ancaq dərzilik edir, əkinçiliklə məşğul olurdular. Əfqan qadınlarını kimsə idmançı olaraq görməmişdi. Əfqan qadınları artıq dünyaya fərqli mesajlar verməyə başlayır. Bacarıqlarını göstərirlər. Əfqan qadınlarının arzusu ölkələrini beynəlxalq yarışlarda təmsil etmək və bayraqlarını ucaltmaqdır. Hətta kiçik qızlar da bir gün vətənlərinə qayıdıb orada idman sahəsini təmsil etmək, vətənlərini dünyada tanıtmaqdır. Çünki Vətən Anadır. Əfqan qadınlarsa analarından uzaq salınıb.

**Məlahət**